RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 148 (8464) ÇƏRŞƏNBƏ, 29 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Dövlətin və xalqın qarşılıqlı dəstəyi ölkəmizə daim güc verir

Keçən əsrin 90-cı illərinin ortalarından Azərbaycan Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə böyük sosial-iqtisadi yüksəliş yoluna qədəm qoydu. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın iqtisadi qüdrətini və siyasi nüfuzunu daha da artırırdı, onu dünyanın ən çox sayılıb-seçilən ölkələri sırasına qovuşdurdu.

## Prezident İlham ƏLİYEV: “Bu gün xalq-iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir”

Böyük sosial-iqtisadi inkişafın, bütün uğurlarımızın, beynəlxalq meqalayihələrin təşəbbüsçüsü olmağımızın, qarşıya çıxan istənilən çətinliklərin öhdəsindən gəlməyimizin əsas səbəbi liderlə xalqın birliyidir.

“Mən hər bir azərbaycanlının Prezidentiyəm!” deyir dövlətimizin müdrik başçısı. Dediklərini dönə-dönə əməli işlərlə təsdiqləyir. Odur ki, xalq da həmişə öz dövlətini, öz liderini bütün işlərdə dəstəkləyir. Başqa sözlə, ən şad günlərdə də, ən çətin vaxtlarda da lider öz xalqının, xalq öz liderinin yanındadır.

Heç uzağa getməyək, son ayların hadisələrini xatırlayaq. Dünyanı dolaşmaqda olan koronavirus pandemiyası Azərbaycana çatar-çatmaz dövlət insanların sağlamlığı naminə bütün imkanlarını səfərbər etdi. Böyük vəsaitlər hesabına qoruyucu vasitələr istehsal edən müəssisələr istifadəyə verildi, yeni xəstəxanalar tikildi, xəstələrin müalicəsi üçün hər cür şərait yaradıldı. Heç bir vətəndaş diqqətdən yayınmadı. Qocalar qayğı ilə əhatə olundu, fermerlərə və sahibkarlara maddi dəstək göstərildi, işsizlərə, iş yerini itirənlərə müvinətlər verildi və s.

Prezident İlham Əliyevin dediyi kimi: “Bütün bunlar bir daha ona göstərir ki, birincisi, Azərbaycan güclü dövlətdir, ikincisi, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun sağlamlığıdır. Bu, onu göstərir ki, bizim tədbirlərimiz məqsədyönlüdür, səmərəlidir, vaxtında atılmış cəsarətli addımlardır. Biz insanların həyatını qorumaq üçün şüurlu şəkildə iqtisadi tənəzzülə və iqtisadi itkilərə getdik. Milyardlarla manat, - baxmayaraq ki, neftin qiyməti düşüb, - xərclədik və xərcləyirik. İnsanların sağlamlığı birinci yerdədir. Bu, onu göstərdi ki, ən çətin böhranlı anlarda biz düzgün addım ata bilərik və güclü iradə göstərə bilərik. Mən hər gün insanlardan yüzlərlə təşəkkür məktubu alıram. Onların cəmi bir hissəsi mətbuatda dərc edilir. İnsanlar bu məktublarda minnətdarlıqlarını bildirirlər. Mənim üçün görülmüş bu işlərə verilmiş ən yüksək qiymət vətəndaşların buna münasibətidir”.

Azərbaycan vətəndaşı bütün sahələrdə dövlətinin köməkçisi, dəstəkçisidir və yeri gəldikcə bunu dilə gətirməkdən də qürur duyur. Məsələn, Füzuli rayonunun 4-cü Zobucuq qəsəbəsinin sakini, şəhid ailəsinin üzvü olan Səadət Hüseynova Prezidentə müraciət edərək yazır: “Sizi daim xalqın yanında görmək bizi fərəhləndirir. Bu təhlükəli virusun respublikamızda yayılmaması üçün gördüyünüz işlər olduqca təqdirəlayiqdir. Siz karantin rejimi dövründə mədəniyyət işçilərinə diqqət və qayğınızı əsirgəmədiniz. Karantin müddətində əməkhaqlarımız saxlanılmaqla növbədənkənar məzuniyyətə buraxılmağımız buna ən gözəl nümunədir. Füzuli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin kollektivi bütün sahələrdə olduğu kimi, pandemiyanın qarşısının alınması üçün verdiyiniz qərar və göstərişləri də dəstəkləyir, bu mübarizədə daim Sizin yanınızdadır”.

Oğuzlu fermer Vasif Umarov da “Biz birlikdə güclüyük!” deyərək ölkə fermerlərinin dövlətin yürütdüyü siyasəti dəstəklədiklərini bildirir.

Sumqayıt şəhərindən Zöhrab Süleyman isə gənclərin dövlətlə, iqtidarla daim birlikdə olduqlarını deyir: “Hörmətli cənab Prezident, dünyanı çənginə almış koronavirus pandemiyasının ən inkişaf etmiş ölkələri belə viran qoyması fonunda Azərbaycandakı vəziyyət bizi sevindirir. Apardığınız məqsədyönlü siyasət və görülən qabaqlayıcı tədbirlər dünya ölkələri üçün nümunədir. Biz gənclər Sizin bütün addımlarınızı dəstəkləyir, daim yanınızda olduğumuzu bildiririk”.

Ardı 2-ci səh.

# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

İnsanlar arasında həmrəylik və qardaşlığın, humanizm və mərhəmətin rəmzi olan Qurban bayramı islam dininin əsas bayramlarından biridir. Müsəlmanlar bu əlamətdar gündə Uca Yaradanın adına qurbanlarla Allaha yaxınlığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər.

Yüz illərdir ki, ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları Azərbaycanda qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında islam dininin müstəsna rolu olmuşdur.

Hər il ölkəmizdə keçirilən dini bayramlar mütərəqqi milli-mənəvi dəyərlərin, sosial yardımlaşmanın və xeyirxahlıq duyğularının təntənəsinə çevrilir. Builki Qurban bayramı dünyanın qarşılaşdığı çətin sınaq dövrünə təsadüf etsə də, mömin vətəndaşlarımız Allah və din yolunda mənəvi borclarını layiqincə yerinə yetirir, öz nəcib əməlləri ilə cəmiyyətimizdə birlik və bərabərlik ovqatını daha da gücləndirirlər.

Əziz bacı və qardaşlarım!

Bu bayram günlərində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ölməz xatirəsini minnətdarlıqla yad edir, onların yaxınlarına və bütün xalqımıza səbir diləyirəm. İnanıram ki, xalqımızın firavanlığı və əmin-amanlığı, Vətənimizin çiçəklənməsi və tərəqqisi naminə etdiyiniz dua və diləklər gerçəkləşəcəkdir.

Bir daha hər birinizə səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə cansağlığı və xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2020-ci il*

# N.E.Mustafayevanın Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nərminə Elsevər qızı Mustafayeva Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2020-ci il*



# Ölkənin aqrar sektoru sürətlə müasir texnologiyalara yiyələnir

## Nazirlər Kabinetinin iclasında bu prosesin davam etdirilməsinin vacibliyi bir daha vurğulandı

Pandemiya dövründə ən ciddi məsələlərdən biri planetar miqyasda ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır. Bu məsələ nə qədər mükəmməl və hərtərəfli həllini taparsa, Yer kürəsində ərzaq çatışmazlığı və qıtlığın qarşısı bir o qədər inamla alınacaq.

Lakin yeniliklərin əhatə dairəsinin genişliyinə baxmayaraq, koronavirus pandemiyası ilə bağlı planetdə bu istiqamətdə müəyyən problemlər yaranır və bir çox hallarda onların qarşısının tam alınması mümkün olmur. Belə ki, karantin rejiminin sərtləşməsindən bazarlarda qıtlıq yaranır, məhsul istehlakçıya ya vaxtında çatmır, ya da yollarda xarab olur, bəzən də qiymətlər aşağı düşür, yaxud yuxarı qalxır.

Ardı 4-cü səh.

# Ölümsüzlüyə qovuşanlar

Azərbaycan Ordusu növbəti dəfə tarix yazdı. İyulun 12-də işğalçı Ermənistanın Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində əl atdığı mənfur əməllərinin qarşısı qətiyyətlə alındı. Vətənin ərazi bütövlüyü uğrunda şəhadət zirvəsinə yüksələn igidlərimiz xalqımızın qəhrəmanlıq ruhunu bir daha nümayiş etdirdilər.

Onlar öz ölümləri ilə göstərdilər ki, Azərbaycan Ordusu əsgərindən generalına qədər qəhrəmanlar ordusudur. Bu orduda xidmət edən hər kəs rütbəsindən, vəzifəsindən asılı olmayaraq, Vətənin sərhədlərini, milli maraqlarını qoruyan igid döyüşçüdür.

## Hər vətəndaş bir əsgər

Cəmiyyətimizdəki vətənpərvərlik ruhu, sərhəddə baş vermiş hadisələrin, əsgər və zabitlərimizin şücaətinin insanlarımızda yaratdığı coşğu isə onu sübuta yetirdi ki, ordumuzun miqyası təkcə hərbi vəzifə daşıyan gənclərimizin sayı ilə məhdudlaşmır. Əli silah tutan, Azərbaycanın hərbi qələbələrinə hər hansı şəkildə fayda verəcək hər bir vətəndaşımız bu ordunun sıralarındadır, Ali Baş Komandanın əmri ilə hər an silaha sarılıb düşmən üzərinə yeriməyə hazırdır.

Ardı 3-cü səh.





# Pandemiya hələ davam edir

## COVID-19-un yox olduğunu sanıb arxayınlaşmaq əldə edilən müsbət dinamikanı heç edə bilər

Ötən il dekabrın 31-də Çin hökuməti Hubey əyalətinin Uhan şəhərində naməlum pnevmoniyanın yayılmağa başlaması barədə Ümumdünya Səhiyyə Təşkilatına məlumat verdi. Mütəxəssislər müəyyənləşdirdilər ki, həmin xəstəliyə yeni koronavirus səbəb olur.

ÜST tərəfindən COVID-19 adlandırılan virus infeksiyası ilə bağlı martın 11-də pandemiya elan edildi. Ötən bu müddət ərzində, eləcə də hazırda koronavirus addım-addım dünyanı zəbt etməkdə, gözləniləninin və arzuolunanın əksinə yoluxma zəncirini və ölüm sayını durmadan artırmaqda davam edir.

Artıq dünyada koronavirus infeksiyası səbəbindən ölənlərin sayı 650 min nəfəri ötüb. İndiyədək koronavirus infeksiyasına 16 milyondan çox insan yoluxub.

Statistikaya əsasən, ən çox yoluxma halı ABŞ, sonra isə Braziliyada qeydə alınıb. Hindistan, Rusiya, Cənubi Afrika Respublikası, Peru isə bu siyahını davam etdirir.

Ardı 6-cı səh.

## *Prezident Rəcəb Tayyib ƏRDOĞAN:* "Azərbaycanlı qardaşlarımızın işğal altındakı torpaqlarını azad etmək səylərini dəstəkləyirik"



Azərbaycandakı qardaşlarımızın işğal altındakı torpaqlarını azad etmək və Vətənlərini müdafiə etmək səylərini də eyni anlayışla dəstəkləyirik. AZƏRTAC Anadolu agentliyinə istinadən xəbər verir ki, bu bəyanatı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Trabzon vilayətindəki Sümela Monastırının ikinci mərhələsinin və buradakı Ayasofya məscidinin bərpadan sonra açılış mərasimindəki çıxışında səsləndirib.

Türkiyə lideri qeyd edib ki, özümüz və dostlarımız üçün necə lazımdırsa mübarizə aparacağıq.

## Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üzrə Yol Xəritəsi layihəsi müzakirə edilib

İyulun 27-də Azərbaycan Respublikası, Əfqanıstan İslam Respublikası və Türkmənistan arasında ticarət və investisiya, energetika, nəqliyyat və logistika, telekommunikasiya və informasiya texnologiyaları, gömrük və sərhəd məsələləri sahələrində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üzrə Yol Xəritəsi layihəsinin müzakirəsi məqsədilə üç ölkənin nümayəndələrindən ibarət İşçi Qrupun videokonfrans formatında görüşü keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə çıxış edən İşçi Qrupun Azərbaycan tərəfindən rəhbəri, Baş Nazirin müavini Şahin Mustafayev Azərbaycan, Əfqanıstan və Türkmənistan prezidentlərinin iyulun 2-də videokonfrans vasitəsilə keçirilmiş görüşü zamanı verilmiş tapşırıqlara uyğun olaraq, Azərbaycan tərəfindən üç ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üzrə Yol Xəritəsi layihəsinin hazırlandığını qeyd edib.

Tərəflər Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında əsasən nəqliyyat və kommunikasiya sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və gələcək inkişafına dair geniş fikir mübadiləsi aparıblar.

İşçi Qrupa Əfqanıstan tərəfindən Mərkəzi Bankın sədri vəzifəsini icra edən Acmal Ahmadi, Türkmənistan tərəfindən isə Nazirlər Kabinetinin sədr müavini Bayramgeldi Ovezov rəhbərlik edirlər.

## Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 45 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 45 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Berd rayonunun Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Muncuqlu kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər, Göyəli kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Ərəb KİV-ində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı barədə məqalələr dərc olunub




Ərəb KİV-ində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribat barədə müsahibələri əsasında ölkəmizin mövqeyini əks etdirən məqalələr dərc olunub.

AZƏRTAC xəbər verir ki, Birləşmiş Ərəb Əmirliklərinin "Dubai Global News", "Emirates Tourism", "Me Business", eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının Milli Xəbər Agentlikləri Birliyi (UNA), Misir və Livanın "Əl-Ahd Əl-Duvali", "Əl-Qimmah News", "Əl-Diplomasy", "Egypt News", "Əl-Xabbar", "Vasat Əl-Bələd", "Kalemat Əl-Arab", "Vol News" kimi digər ərəb və ingilisdilli xəbər agentlikləri, qəzet və internet resurslarında dərc edilmiş məqalələrdə ATƏT-in Minsk qrupunun həmsədrləri və bütün beynəlxalq birlik tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına yönəlmiş səyləri gücləndirmək zərurəti vurğulanıb.

Məqalələrdə mövcud vəziyyətin inkişafı ilə əlaqədar olaraq Ermənistan tərəfindən törədilmiş son təxribatların Prezident İlham Əliyev tərəfindən Təhlükəsizlik Şurasının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclaslarında tam qiymətləndirildiyi qeyd olunub.

Münaqişənin nizamlanmamış statusunun regionda sülhə və təhlükəsizliyə təhdidin əsas mənbəyi olması, son hadisələrin erməni tərəfinin regionda vəziyyətin kəskinləşməsi, gərginlik yaradılması və iki ölkə arasında dövlət sərhədi və təmas xətti boyunca eskalasiya üçün bu cür hərbi təxribatlardan daim istifadə etməsi diqqətə çatdırılıb. Bununla yanaşı, vurğulanıb ki, danışıqlar prosesinin mahiyyəti Azərbaycan ərazilərinin işğaldan azad olunmasına və azərbaycanlı qaçqınların öz yurdlarına geri dönməsinin təmin edilməsinə, Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün bərpa olunmasına yönəlməlidir.

Prezidentin köməkçisi müsahibələrində Ermənistanı üzvü olduğu hərbi-siyasi təşkilatları, digər üçüncü tərəfləri münaqişəyə cəlb etmək niyyətində olmaqda ittiham edib.

Məqalələrin sonunda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə oxuculara qısa məlumat verilib.

https://mebusiness.ae/ar/news/show/55904

http://www.emiratestourism-mag.com/%d8%ad%d9%83%d9%85%d8%aa-%d8%ad%d8%a7%d8%ac%d9%8a%d9%8a%d9%81-%d9%85%d8%b3%d8%a7%d8%b9%d8%af-%d8%b1%d8%a6%d9%8a%d8%b3-%d8%a3%d8%b0%d8%b1%d8%a8%d9%8a%d8%ac%d8%a7%d9%86-%d9%8a%d8%b9%d9%84%d9%86/

https://www.dubaihospitality-news.com/2020/07/26/104763/ https://www.dubaiglobal-news.com/2020/07/26/159884/http://www.una-oic.org/page/public/news_details.aspx?id=307554

## Təhsil naziri kollektivə təqdim olunub



İyulun 28-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Prezidentinin 2020-ci il 27 iyul tarixli sərəncamı ilə Təhsil naziri vəzifəsinə təyin olunmuş Emin Əmrullayevi nazirliyin kollektivinə təqdim edib.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Prezident Administrasiyasının şöbə müdiri Fərəh Əliyeva son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə nailiyyətlər əldə olunduğunu, xüsusilə təhsil sahəsində həyata keçirilən islahatları diqqətə çatdırıb.

Nazir Emin Əmrullayev dövlət başçısı tərəfindən ona göstərilən yüksək etimada görə təşəkkürünü bildirib. O, Azərbaycan Prezidentinin təhsil sahəsində qarşıya qoyduğu vəzifələri layiqincə yerinə yetirilməsi, bu istiqamətdə daha da dərinləşdirilməsi və hər bir Azərbaycan vətəndaşının keyfiyyətli təhsillə əhatə olunması üçün əlindən gələni edəcəyini bildirib.

## *Akademik Ramiz MEHDİYEV:* "Dünya erməniliyinin aqressiv hücumları ilə üzləşdiyimiz bir vaxtda ictimai rəyi çaşdırmaq qətiyyən yolverilməzdir"



Son dövrdə mühacirətdə fəaliyyət göstərən bir sıra müxalifyönlü jurnalistin internet kanalları vasitəsilə yayımladıqları veriliş və müzakirələrdə ölkə rəhbərliyinin ünvanına etik hədləri aşan üslubda səsləndirdikləri ittiham və böhtanlar Azərbaycan cəmiyyətinin əksər üzvləri kimi məni də dərindən narahat edir. AZƏRTAC xəbər verir ki, bu fikirlər AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin açıqlamasında yer alıb.

Akademik R.Mehdiyev qeyd edir ki, xüsusilə də həmin şəxslərin istefaya göndərilmiş, yaxud başqa vəzifəyə təyin olunmuş şəxslərlə bağlı həyata keçirməyə çalışdıqları manipulyasiya cəhdləri təəssüf doğurur. Bu cəhdlərin ölkə rəhbərliyi ilə sabiq məmurları üzüzə qoymaq, anlaşılmazlıq yaratmaq, ixtilaf salmaq, cəmiyyətdə guya iqtidar daxilində dərin ziddiyyətlərin olması haqqında rəy formalaşdırmaq taktikasına söykəndiyi açıq-aşkar görünməkdədir. Azərbaycanın olduqca həssas siyasi mərhələyə qədəm qoyduğu, Ermənistanın təcavüzü və dünya erməniliyinin aqressiv hücumları ilə üzləşdiyi, pandemiyanın fəsadları ilə mübarizə apardığı bir vaxtda ictimai rəyi belə bir formada çaşdırmaq və parçalamaq dövlətçilik maraqları nöqteyi-nəzərindən qətiyyən yolverilməzdir. Belə hərəkətlər ölkəmizin taleyi baxımından da olduqca təhlükəlidir. Mən bu cür mübarizə yolunu seçənləri bir daha öz fəaliyyətlərini nəzərdən keçirməyə, cəmiyyətimizin və dövlətimizin həyati mənafelərini nəzərə almağa çağırıram. Onlar nəzərə almalıdırlar ki, xaricdən səsləndirdikləri radikal ifadələr Azərbaycanda müvafiq kəskin reaksiyaya səbəb olacaqdır.

Şəxsən öz adımdan bir daha bəyan etmək istəyirəm ki, siyasi əqidə məsələsi mənim üçün qumar daşı deyil və mən ömrüm boyu xidmət etdiyim yoldan hansı vəzifəni tutmağımdan asılı olmayaraq heç vaxt dönməmişəm, daşıyıcısı olduğum əqidənin doğruluğuna dair tərəddüd hissi keçirməmişəm. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideallarının ölkəmizin sabitliyi, rifahı və inkişafı üçün ən düzgün siyasi seçim olduğuna daim əmin olmuşam. Bu yolda Heydər Əliyevin və Prezident İlham Əliyevin sadiq silahdaşı olaraq uzun illər fəaliyyət göstərmişəm və bundan sonra da göstərməyə davam edəcəyəm. Mənim dövlət başçısına bağlılığım mənəviyyat və dövlətçilik məsələsidir. Burada şəxsi mənafedən və cılız maraqlardan söhbət belə gedə bilməz.

Öz çıxışlarında tənqid ədəbini asanlıqla tapdalayanlar unutmamalıdırlar ki, Prezident dövlətin rəhbəri, ölkənin suverenliyinin rəmzidir. Danılmaz həqiqətdir ki, İlham Əliyevin prezidentliyi dövründə ölkəmiz böyük tərəqqi yolu qət etmiş, onun beynəlxalq nüfuzu güclənmişdir. Bu, hər bir azərbaycanlıda haqlı qürur hissi doğurur. Xaricdə Azərbaycan dövlətinin xoşagəlməz şəkildə təqdimatı özünü azərbaycanlı hesab edən heç kəsə başucalığı gətirə bilməz. Hazırkı siyasi şəraitdə bizim hər birimizin yalnız bir düşməni var - işğalçı Ermənistan! Bütün enerjimiz və gücümüz bu düşmənlə mübarizəyə yönəlmətidir. Tariximiz də onu göstərir ki, xarici təhlükələri unudub, daxili mübarizəyə aludə olduğumuz bütün dövrlərdə böyük itkilərlə və məğlubiyyətlərlə qarşılaşmışıq. Keçmişin faciələrindən ibrət götürmək və dövlət başçısının ətrafında sıx birləşmək bizim Vətən qarşısındakı borcumuz və mənəvi məsuliyyətimizdir!

## Dövlətin və xalqın qarşılıqlı dəstəyi ölkəmizə daim güc verir

*Əvvəli 1-ci səh.*

Azərbaycan vətəndaşları xalq-iqtidar birliyini ifadə edən fikirlərini həmişə və hər yerdə vurğulayırlar - məktublarda, istehsal və sosial təyinatlı obyektlərin açılışlarında, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşlərdə, bir-biri ilə söhbətlərində... Ən başlıcası isə xalq-iqtidar birliyi əməli işlərdə, həyatın gündəlik axarında özünü göstərir və zaman keçdikcə bir daha təsdiqlənir və möhkəmlənir.

"Mən Azərbaycan xalqı ilə bütün vacib məsələləri həm bölüşürəm, həm məsləhətləşirəm, həm öz fikirlərimi, öz siyasətimi deyirəm və eyni zamanda xalqı narahat edən problemləri dərindən təhlil edirəm. Təsadüfən deyilmir ki, xalqın gözü tərəzidir. Ona görə, bizim hakimiyyət xalq hakimiyyətidir, xalqın iradəsinə əsaslanan hakimiyyətdir".

Bu sözlər də dövlət başçısına məxsusdur. Prezident, həqiqətən də, həyatın bütün sahələrində xalqa arxalanır. Hətta korrupsiyaya qarşı mübarizədə də. Prezident bütün vəzifə sahibləri, bütün məmurlar qarşısında xalqla birlikdə olmaq, vətəndaşlara xidmət etmək vəzifəsi qoyur: "Biz korrupsiyanın, kölgə iqtisadiyyatının meydanını daraldırıq. Ancaq bununla yanaşı, inzibati tədbirlər və cəza tədbirləri görülür və görüləcək. Azərbaycan ictimaiyyəti bu məsələ ilə bağlı məlumatlandırılır. Deyə bilərəm ki, mənim ünvanıma gələn minlərlə məktubda korrupsiya, rüşvətxorluq ilə bağlı bizim mübarizə çox yüksək qiymətə layiq görülür. Vətəndaşlar bunu təqdir edir, bəyənir və biz görürük ki, yerlərdən artıq siqnallar gəlməyə başlayır. Mən bir daha demək istəyirəm ki, mütləq ictimai nəzarət olmalıdır. Məmur özbaşınalığı ilə bağlı hər bir siqnal araşdırılacaq. Təbii ki, bu siqnallar ədalətli olmalıdır".

Xalqımız, eləcə də, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bütün tədbirlərə dəstək verir. Birinci xanım Mehriban Əliyeva Azərbaycan analarının və uşaqlarının, məcburi köçkünlərin, şəhid ailələrinin, qocaların böyük himayədarıdır, gördüyü dəyərli və xeyirxah işlərə görə bütün xalqın dərin məhəbbət və ehtiramını qazanıb. İnsanlardan aldığı dəstək də məhz bu amillərə əsaslanır.

Bu ilin iyul ayında Ermənistanın atəşkəsi kobudcasına pozaraq Azərbaycanın Tovuz rayonu istiqamətində təxribat törətməsi, nəticədə düşmənin öz bəd əməlinə layiq cavab alması zamanı da ölkəmizdəki xalq-iqtidar birliyi bir daha təsdiqləndi. Xalqın öz Prezidentinə , Ali Baş Komandana, dövlət başçısının isə orduya, vətəndaşlara arxalandığı əyani göründü.

Prezident İlham Əliyev bu barədə demişdir: "Bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir. Bunu Azərbaycan xalqı bilir. Mən bu günlərdə minlərlə vətəndaşdan məktub alıram və bu məktubların hamısı dəstək xarakterlidir. Beynəlxalq hərbi ekspertlər eyni fikirdədirlər və bunu o bölgədə real vəziyyət göstərir. Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar. Əksinə, əgər biz istəsəydik, bu gün Ermənistanın o ərazisində torpaqların böyük hissəsi nəzarətimizə keçə bilərdi. Ancaq bizim qarşımızda belə məqsəd dayanmır".

Bir sözlə, Azərbaycanda son aylar yaşanan hadisələr bir daha göstərir ki, xalqımız ağır günlərdə bacarıqla bir nöqtəyə vura bilir. Bütün bunlar xalq-iqtidar birliyinin daha bir göstəricisidir. Prezident İlham Əliyev haqlı olaraq xalq-iqtidar birliyini Azərbaycanda sabitliyin inkişafının əsas şərti adlandırmışdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Təlimdə iştirak edəcək Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin təntənəli qarşılanma mərasimi keçirilib

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq ölkəmizdə hər iki ölkənin Quru Qoşunları və Hərbi Hava Qüvvələrinin iştirakı ilə iyulun 29-dan avqustun 10-dək keçiriləcək birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərində iştirak edəcək Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin Bakıya gəlməsi münasibətilə təntənəli qarşılanma mərasimi olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan büstü önünə gül dəstələri qoyulub, Ulu Öndərin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Təlimlərə iki ölkə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələri cəlb ediləcək.

## Korrupsiya Ermənistanın çöküşünü sürətləndirir

### Başda Paşinyan olmaqla erməni məmurlar üçün yeganə məqsəd mümkün qədər çox varidat əldə etməkdir

Ermənistanın sosial-iqtisadi sahədə üzləşdiyi problemlərin miqyası koronavirus pandemiyası fonunda daha da artmaqdadır. Artıq bu ölkənin özündə də açıq etiraf edilir ki, hadisələrin real gedişi Ermənistanın bir dövlət olaraq tarixin arxivinə qovuşmasını şərtləndirir. O da xüsusi olaraq vurğulanır ki, Paşinyan iqtidarı mövcud problemlərin həlli üçün hər hansı konsepsiya va ya tədbirlər planına malik deyil. Baş nazir yalnız öz şəxsi mənafelərini güdməkdə, istənilən qanunsuz yolla daha çox varidat toplamaq barədə düşünür. Ermənistanın "İravnyuk" qəzeti yazır ki, məhz elə bu səbəbdən həddən artıq kasıb olan, əhalisinin böyük hissəsi ifrat yoxsulluq həddində yaşayan bu kiçik ölkədə sürətli inkişaf mərhələsi yaşayan yeganə sahə korrupsiyadır.

Qeyd olunur ki, korrupsiya Ermənistanın bütün həyat sferalarında kifayət qədər dərin kök salıb və artıq ölkənin milli təhlükəsizliyinə də böyük təhdid yaradır. Belə vəziyyət sadə vətəndaşların mövcud hakimiyyətdən duyduğu narazılığın daha kəskin xarakter almasına, hətta sosial partlayış həddinə qədər yüksəlməsinə gətirib çıxarır. Bütün məmur ordusu korrupsiya piramidasında yer aldığından bu problemə qarşı mübarizə yalnız kağız üzərindədir və vaxtaşırı verilən quru vədlərdən ibarətdir. Korrupsiyaya qarşı strategiya hazırlansa da, təbliğat kampaniyaları aparılsa da məmur oliqopoliyası reallıqda bu problemə qarşı hər hansı mübarizənin aparılmasına imkan vermir, əksinə daha çox var-dövlət toplamaq üçün istənilən qanunsuzluğa yol verməkdən çəkinmir. Nəticədə ölkə həyatının ən müxtəlif sahələrində korrupsiya, rüşvətxorluq daha dərin kök salır, böyük sürətlə çiçəklənir. Məsələn, indi dövlət səviyyəsində açıq etiraf olunur ki, təkcə vergi sistemində korrupsioner, rüşvətxor məmurların sayı minlərlədir.

Ermənistan parlamentində təmsil olunan "Mənim addımım" blokundan olan deputatlar da korrupsionerlər ordusunun ön sıralarında yer alanlardandır. Paşinyanın hakimiyyətə gəlməsindən iki il müddət ötməsinə baxmayaraq ötən dövr ərzində deputat mandatı alanların böyük əksəriyyəti ölkənin tanınmış biznesmenləri sayılır, onlardan bir çoxu hətta konkret sahələr üzrə ən iri inhisarçılardır.

Korripsiya və rüşvətin tüğyan etdiyi sahələr sırasında silahlı qüvvələr, o cümlədən ordu xüsusilə fərqlənir. "Qraparak" qəzetinin bununla bağlı yaydığı sənədlərdə hətta Müdafiə Nazirliyində hərbi çağırışlar zamanı alınan rüşvətlər, onların kimə çatması, rüşvətin zonalar üzrə təsnifatı əks olunur. Belə məlum olur ki, müdafiə naziri David Tonoyan təkcə hərbi çağırışlar zamanı milyononlarla dollar gəlir əldə edir. Həmçinin orduya ayrılan vəsaitin böyük hissəsi də təyinatı üzrə xərclənməyərək Tonoyan və baş qərargah rəisi tərəfindən mənimsənilir. Hər iki şəxs isə baş nazir Paşinyanın ən yaxın adamları sırasında yer alır. Yayılan məlumatlara görə, mənimsənilən pulların böyük hissəsi məhz Paşinyana çatır.

"Qraparak" qəzeti yazır ki, elə bu səbəbdən Müdafiə Nazirliyində korrupsiyaya qarşı mübarizə son vaxtlar da David Tonoyandan yan keçir. Qəzet daha sonra belə bir maraqlı məqama diqqət çəkir: "Ümumiyyətlə, burada kim özündən yüksək rəhbərliyə daha az pul verirsə, böyük miqdarda vəsait toplamağı bacarmırsa hədəfə götürülür. İri korrupsionerlərə isə bir qayda olaraq toxunulmur".

Ermənistan hüquq-mühafizə orqanları rüşvət və korrupsiyanın miqyasına görə seçilənlər cərgəsindədir. "4rd.arm" saytı yazır ki, bu orqanlar hüquqların mühafizə olunmasından başqa hər işlə məşğuldurlar. Məsələn, Ermənistan polisinin rəisi qonşu Gürcüstana metal boruların ixracı ilə məşğuldur. Ermənistan daxilində də onun kifayət qədər biznes obyektləri mövcuddur.

Müxtəlif təşkilatlatlar tərəfindən Ermənistanda aparılan sorğular göstərir ki, son illər ölkədə korrupsiyanın miqyası xeyli artıb. Rəyi soruşulanların əksəriyyəti bütün məmurların istisnasız olaraq rüşvət və korrupsiyaya qurşandığını düşünür. Ermənistanda daha çox korrupsiyalaşmış sahələr kimi təhsil, səhiyyə, ordu, polis və məhkəmə sistemləri göstərilir.

"Lragir" saytı yazır ki, hakimiyyət dəyişikliyindən sonra Ermənistanda dövlət idarəetmə sisteminin hələ də formalaşmaması bu problemlərin yaranmasına gətirib çixarır. O qeyd edir ki, Paşinyan iqtidarındakı insanlar milli, dövlət və ərazi maraqları ilə yanaşı, vətəndaşların mənafeyini heçə sayır: "Başda baş nazir olmaqla bu insanlar üçün yeganə məqsəd mümkün qədər çox pul qazanmaq, varidat əldə etməkdır".

İndi Ermənistanda belə bir fikir hakimdir ki, korrupsiya tam şəkildə ölkənin maddi və mənəvi həyatına daxil olaraq hər şeyi amansızcasına məhv edir. O da bildirilir ki, dövlət xəzinəsinin talan edilməsi, əmlakın, xaricdən alınan kreditlərin mənimsənilməsi fonunda miqrasiya və yoxsulluq səviyyəsi də durmadan yüksəlir, iqtisadiyyat böyük sürətlə tənəzzülə uğrayır. Həllini tapmayan sosial problemlərin miqyası daha da genişlənir.

Sözügedən kontekstdə daha bir ciddi problem də ölkənin artıq 8 milyard ABŞ dollara çatan xarici borcu ilə bağlıdır. Belə vəziyyətdə büdcədən əhaliyə daha az pul ayrılması qaçılmaz olacaq və bu da Ermənistanda sosial-iqtisadi problemlərin daha geniş miqyas almasına səbəb olacaq.

Beləliklə, qeyd edilənlər Ermənistanın üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir və işğalçı ölkənin indi daha böyük sürətlə öz məhvinə doğru sürükləndiyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Xalq Ali Baş Komandanın və Ordunun ətrafında yumruq kimi birləşib



# Ölümsüzlüyə qovuşanlar

Əvvəli 1-ci səh.

Azərbaycan Ordusunu yenilməz edən də bu məğlubedilməz ruhdur. Ordumuz gücünü, qüdrətini xalqdan, bir də qətiyyətli və sarsılmaz iradəyə malik Ali Baş Komandandan alır.

Ona görə işğalçı Ermənistan bu dəfə də öz təxribatçı məqsədlərinə çata bilmədi. Azərbaycan apardığı haqq davasında mövqelərini daha da gücləndirdi, imkanlarını səfərbərliyə aldı. Düşmənə vurduğu zərbə ümidlərini sarsıtdı. Necə ki, Azərbaycan Ordusunun 2016-cı ilin Aprel döyüşlərindəki şanlı qələbəsi cinayətkar Sarkisyan rejiminin dayaqlarını laxlatmışdı, bu dəfə də Paşinyan rejimi eyni aqibətlə üzləşdi.

Böyük yəqinliklə, yaxın günlərdə işğalçı ölkədə yeni siyasi qarşıdurmalara, vətəndaş narazılıqlarına, xaosa, çevrilişlərə şahid olacağıq. Ermənistan rəhbərliyinin apardığı siyasətin antihumanist, ümumbəşəri dəyərlərə zidd mahiyyətinin beynəlxalq aləmdə ifşası, işğalçı ölkə ətrafındakı blokada və təzyiq halqasının daralması o ölkənin sonunu yaxınlaşdıracaq.

## Düşmənə verilən dərs

Bu təxribatlardan bir neçə gün əvvəl yerli televiziyalara müsahibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyev bütün dünyaya, o cümlədən işğalçı Ermənistana qətiyyətli mesaj ünvanlamışdı: "Heç kim Aprel döyüşlərini unutmasın!"

2016-cı ilin aprelində ordumuz uğurlu əməliyyat nəticəsində Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdi. Bunun ardınca - 2018-ci ildə isə daha bir uğurlu əməliyyatla Naxçıvanda on min hektardan çox torpaq sahəsi işğalçılardan təmizləndi. Beləliklə, vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovulub, çıxarıldı. O torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Azərbaycan hərbçilərinin düşməndən azad edərək möhkəmləndirdikləri strateji yüksəkliklər hazırda ordumuza Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət imkanları yaradır. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu da hazırda Azərbaycanın nəzarəti altındadır.

Azərbaycan Ordusu Aprel döyüşlərində, ardınca Naxçıvan əməliyyatında olduğu kimi, bu dəfə də düşmənə vurduğu zərbə ilə Ermənistana göz dağı çəkdi. Ermənistan işğalçılıq və faşizm siyasətindən əl çəkməyənə qədər bu cür sarsıntıları, biabırçı məğlubiyyətləri, saysız-hesabsız itkiləri hələ çox yaşayacaq. Bu, təcavüzkar ölkənin seçdiyi taledir.

Tutduğu bədnam mövqeyin, atdığı yanlış addımların məntiqi nəticəsidir.

## Erməni faşizmi

Bu gün bütün dünya COVID-19 koronavirus pandemiyasına qarşı mübarizə aparır. Bəşəriyyət bütün ölkələrin, xalqların gələcəyini eyni şəkildə təhdid edən, dünya iqtisadiyyatını çox çətin vəziyyətlə üz-üzə qoyan ümumi bəlaya qarşı birləşməyə çalışır. Birlikdə uğur həllərin axtarılmasına can atır. Dünyanın demək olar ki, bütün ölkələrində hərbi əməliyyatlar dayanıb. Hətta terrorçu qruplaşmalar belə, hər hansı cinayət əməllərindən, terror aktlarından əl saxlayıb. Hamı anlayır ki, indi düşmənçilik vaxtı deyil. Bütün dünyanın üz-üzə durduğu gözəgörünməz düşmənə qarşı birgə mübarizə aparmaq zamanıdır.

Hətta gözlənilən idi ki, bəşəriyyət pandemiyanın verdiyi dərslərdən gələcək üçün də müəyyən nəticələr çıxaracaq. Hərbi münaqişələrin, o cümlədən regional konfliktlərin nə qədər mənasız bir iş olduğunu, nəhayət, hər kəs anlayacaq. Postpandemiya dövründə hamı düşmənçilik mövqeyini kənara qoyub sülh, təhlükəsizlik, davamlı iqtisadi inkişaf, insanların sosial rifahı üçün ən doğru yolların axtarışına başlayacaq. Dünyada innovativ inkişaf sürətlənəcək. İnsan həyatının dəyəri artacaq. Hökumətlər əhalinin maddi-rifah halının yüksəlməsinə, sosial xidmətlərin onlar üçün daha da əlçatan olmasına çalışacaqlar. Necə ki, bu sosial siyasəti xalqımız dövlətimizin addımlarında hər an görür.

Dünyanın beyin mərkəzləri, cəmiyyətlər, fərdlər postpandemiya dövründə belə bir dünyanın xəyalını qurarkən erməni xisləti yenə öz sözünü dedi. İşğalçı Ermənistanın dünya üçün son dərəcə gərgin dövrdə Azərbaycana qarşı pandemiya ilə yanaşı, ikinci cəbhə açması göstərdi ki, Ermənistan kimi faşizm ideologiyasına xidmət edən ölkələr, siyasi rejimlər mövcud olduqca münaqişələr də davam edəcək. Bu cür rejimləri ümumilikdə bəşəriyyətə qarşı heç bir dünyamiqyaslı dərdə-sərə, problemə baxmayaraq, öz hikkəsi ilə tətbiq etməkdən çəkinməyən düşmənin, ümumiyyətlə, insanlıqdan, siyasətdən, dünya təcrübəsindən xəbərsiz olduğunu göstərir və belə ilanın başını əzməkdən başqa çarə qalmır.

Belə ölkələrin region və ümumilikdə dünya üçün nə qədər böyük təhlükə doğurduğunu yaranmış mənzərə aydın göstərir. Nəzərə alaq ki, pandemiya Ermənistandan da yan keçməyib. İqtisadi imkanları, resursları çox məhdud olan, vətəndaşları ac-yalavac durumda dolanan işğalçı Ermənistan bu gün pandemiyadan ən çox əziyyət çəkən, bu qlobal bəla qarşısında aciz duruma düşən ölkələrdəndir. Xəstəlikdən yoluxma və ölüm sayı burada hər gün artır. Vətəndaşların müalicəsi üçün lazımi imkanlar yoxdur. Ölkənin iqtisadi durumu karantin rejiminin tətbiqinə imkan vermir. Çünki məhdudlaşdırıcı tədbirlərin müqabilində insanların dolanışığının təmin olunmasını dövlət öz boynuna götürə bilmir. Ona görə də Ermənistanda sosial narazılıqlar getdikcə artır. Küçə-meydan eyforiyası azaldıqca vətəndaşlar Paşinyan rejiminə qarşı ayağa qalxmağa başlayır. Hətta belə ağır bir dönəmdə də düşmənin işğalçılıq siyasətindən əl çəkməməsi, Azərbaycan sərhədlərini kobudcasına pozmaq, yeni mövqelər əldə etmək cəhdləri həqiqətən faşizm xəstəliyinin ifrat təzahürü kimi heyrət doğurur.

## Yenilməz ordu

Amma erməni xislətindən irəli gələn bu həyasızlığın, faşizm ideologiyasına bağlılığın onları sövq etdiyi hər azğın hərəkət Azərbaycan Ordusunun qətiyyətli cavabı ilə qarşılaşacaq. Qətiyyən şübhə yoxdur ki, ordumuz işğalçının burnunu ovacaq.

Azərbaycan Ordusu bu gün Cənubi Qafqaz regionunun ən qüdrətli ordusudur. Son illərdə ölkəmizin sosial-iqtisadi nailiyyətlərindən irəli gələrək silahlı qüvvələrimizin maddi-texniki bazası tamamilə yenilənib. Azərbaycan Ordusu ən müasir silah-sursat, texnologiyaların ən son nəslinə aid hərbi avadanlıq və ləvazimatlarla təchiz olunub. Ölkə ərazisindəki əksər hərbi hissələr təmir edilib və ya yenidən qurulub. Müasir dövrün tələblərinə uyğun hərbi hissələr tikilərək istifadəyə verilib. Ən ucqar ərazilərdə, düşmənlə üzbəüz mövqelərdə də döyüşçülərimiz yaxşı şəraitlə təmin edilib. Ən əsası isə Azərbaycan Ordusunun döyüş ruhu çox yüksəkdir. Bu gün işğalçı ölkənin qarşısında gördüyü ordu müstəqilliyimizin ilk illərindəki - sıralarında Vətən üçün canını fəda edən igid övladlarımız vuruşan, şəhid olan, amma həm də nizamsız, vahid komandanlıqdan daha çox ayrı-ayrı siyasi qruplaşmalara bağlı birləşmələr deyil. Öz gücünü, döyüş əzmini, peşəkarlığını, texniki imkanlarını son illərdə düşmən üzərindəki zəfərləri ilə göstərən, ideoloji cəhətdən də mükəmməl silahlanmış yenilməz nizami ordudur.

Azərbaycan Ordusu bu gün müxtəlif parametrlərə görə dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşır. Səfalət içində yaşayan, demoqrafik azalma və xaricə əhali miqrasiyası üzündən bu gün orduya göndərməyə əsgər tapa bilməyən kasıb, ac Ermənistan belə bir qüdrətli ordu qarşısında duruş gətirə bilərmi?!

## Qürur dolu tarix

Prezident İlham Əliyev bütün çıxışlarında düşmənə xəbərdarlıq edir. Təxribatçı mövqedən, işğalçı siyasətdən əl çəkməyə çağırır. Atəşkəsin pozulacağı, təxribatlara cəhd ediləcəyi təqdirdə ordumuzun buna ən ağır şəkildə cavab verəcəyini diqqətə çatdırır. Və hər təxribat cəhdində düşmənin başının dərhal əzilməsi bu bəyanatların söz olaraq qalmadığını, Azərbaycan Prezidentinin bütün məsələlərə münasibətdə olduğu kimi, bu məsələdə də sözünün arxasında dəyanətli mövqeyini göstərir.

Müdafiə Nazirliyimizin düşmən təxribatına qarşı aparılmış əməliyyatların cüzi bir hissəsi kimi yaydığı videogörüntülər düşmənin sərhəddəki infrastrukturunun, canlı qüvvəsinin, səngərlərinin, strateji mövqelərinin, dayaq məntəqələrinin şanlı ordumuzun sərrast atəşləri nəticəsində dəqiqliklə məhv edildiyini göstərdi.

Bunlar ümumi mənzərənin yalnız kiçik epizodlarıdır. Hərbin özünməxsus qayda-qanunlarını, məxfilik prinsiplərini nəzərə alaraq görüntülərin yalnız bir qismi yayılıb. Reallıqda isə yəqin ki, düşmənin itkiləri bundan qat-qat çoxdur.

İşğalçının təxribatçı əməllərinin, məkrli niyyətlərinin cavabı elə bu cür də olmalı idi. Azərbaycan Silahlı Qüvvələri düşmənə layiq olduğu cavabı verdi. Tovuzda aparılmış bu əməliyyat, hərbçilərimizin igidlikləri Azərbaycan Ordusunun şanlı tarixində hər zaman qürurla xatırlanacaq.

## Haqq davası

Aprel döyüşlərində olduğu kimi, mənfur qonşumuz yenə də ən çirkin əməllərə əl atır. Zaman-zaman göstərdiyi namərdlikləri növbəti dəfə təkrarlayır. 1992-ci ilin 26 fevralında Xocalıda dinc azərbaycanlılara qarşı törətdiyi bəşəri cinayətin, mülki vətəndaşlara qarşı terrorun bu ölkənin ardıcıl dövlət siyasəti olduğunu göstərdi. Azərbaycan Ordusunun vurduğu zərbələrin qisasını dinc mülki sakinlərdən almağa çalışır. Sərhəddəki Azərbaycan kəndlərini atəşə tutur. Bunun nəticəsində 76 yaşlı ağsaqqal, Tovuz sakini Əziz Əzizovun həlak olması Ermənistanın məhz faşist siyasəti yeridən dövlət olduğunu bir daha sərgiləyir.

Ermənistanın bu təxribatının səbəbkarı kimi Azərbaycanı göstərməyə cəhd etməsi erməni həyasızlığının, üstəlik məntiqsizliyinin heç bir sərhəd tanımadığını növbəti dəfə isbat edir. Dövlət rəhbərimizin də qeyd etdiyi kimi, bizim Ermənistanla Azərbaycanın dövlət sərhədində hər hansı bir hərbi məqsədimiz yoxdur. Bir neçə il bundan əvvəl isə Azərbaycan Prezidentinin tapşırığına əsasən, sərhədin bir hissəsinin qorunması Sərhəd Qoşunlarına həvalə edilib. Belə bir təxribata əl atmaqda isə təcavüzkar ölkənin niyyəti Azərbaycanın yeni ərazilərini işğal etmək, strateji yüksəkliklərdə mövqe tutaraq ölkəmizin son onilliklərdəki iqtisadi-siyasi nailiyyətlərinin, qlobal uğurlarının rəhninə çevrilmiş Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars və bu sıraya əlavə edilən digər enerji-kommunikasiya layihələrini təhdid altında saxlamaq idi.

Ermənistanı bu təxribata sürükləyən hazırda işğalçı ölkədə mövcud olan siyasi-iqtisadi böhrandır. Məlumdur ki, Paşinyan hakimiyyətə çox böyük eyforiya ilə gəlmişdi. Kütlənin onun ardınca getməsinin əsas səbəblərindən biri də xarici fondlardan maaş və təminat alan dəstənin Ermənistan cəmiyyətinə verdiyi böyük vədlər idi. Guya qısa müddət ərzində Ermənistana on milyardlarla dollar sərmayə qoyulacaq. Hazırda əhalisinin sayı 2 milyondan da az olan təcavüzkar ölkədə guya həyat yenidən qurulacaq, haqq-ədalət, demokratik prinsiplər bərqərar olacaq, insan haqları qorunacaq, əhalinin sayı 5 milyona çatacaq.

Cinayətkar, qaniçən Sarkisyan rejimindən cana doymuş erməni xalqına bu vədlər xeyli cəlbedici gəlirdi. Amma Ermənistanın durumu ilə az-çox tanış olan hər kəs bilirdi ki, başqalarının əlində maşa rolunu oynayan, özünü bütün inkişaf layihələrindən təcrid edən, heç bir resursları olmayan, ölkədəki mövcud korrupsiya üzündən xarici investisiyalar cəlb edə bilməyən, ümidi yalnız xaricdəki havadarlarının dilənçi payına qalan ölkədə bu vədləri yerinə yetirmək mümkün deyil. Ona görə də tezliklə Paşinyan rejiminə qarşı çalxalanmaların başlanacağı gözlənilən idi və bu gözlənti baş verdi. Ermənistan hökuməti bu çalxalanmaların qarşısını almaqdan ötrü indi bütün mümkün vasitələrdən istifadə etməyə çalışır. Təşəbbüsü ələ ala biləcək siyasi opponentlər həbs edilir. Konstitusiya kobudcasına pozulur, qanunsuz düzəlişlər edilir. Hakimiyyət bölgüsü prinsipinə məhəl qoyulmur. Demokratik idarəçilik normalarından əvvəllər olduğu kimi, indi də əsər-əlamət yoxdur. Faşist ideologiyasına xidmət edən, qonşu dövlətin ərazilərini illərdir ki, işğal altında saxlayan, etnik təmizləmə siyasəti aparan, milyondan çox Azərbaycan vətəndaşının hüquqlarını pozan, bəşəriyyətə qarşı Xocalı soyqırımı kimi dəhşətli cinayət törətmiş işğalçı bir ölkədə demokratiyadan, insan haqlarından, təbii ki, söhbət gedə bilməz. Buna görə də ölkədəki ciddi böhranı ikinci plana atmaqdan ötrü son addım kimi Ermənistan Azərbaycanla sərhəddə təxribatlara əl atdı.

İşğalçı qonşumuzun bu şəkildə quduzlaşmasında ölkəmizin qazandığı nailiyyətlərin, beynəlxalq uğurların da çox böyük təsiri var. Bu uğurların Ermənistan rəhbərliyində necə psixi simptomlar yaratdığı Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılmasına onların reaksiyasından göründü. Dünyanın 130-dan çox ölkəsi Azərbaycan Prezidentinin pandemiyaya qarşı qlobal imkanların birləşdirilməsi, birgə həllərin tapılması, bu sahədə əməkdaşlığa, həmrəyliyə nail olunması məramı ilə irəli sürdüyü faydalı təşəbbüsə yekdilliklə səs verdi. Pandemiyadan ən çox əziyyət çəkən ölkələrdən biri kimi bu təşəbbüsün həyata keçirilməsində ən çox elə Ermənistan maraqlı olmalı idi. Heç olmasa, ümumbəşəri dəyərlər bu ölkəni də belə bir təşəbbüsü dəstəkləməyə sövq etməli idi. Ermənistan isə bütün dünyanın dəstəklədiyi təşəbbüsün əleyhinə çıxmaqla öz faşist mahiyyətini bu məsələdə də ortaya qoydu. Ardınca da çox sınaqlı bir dövrdə Azərbaycanı əsas məqsəddən yayındırmaq, yeni ərazilərimizi işğal etmək niyyəti ilə Tovuz istiqamətində bu cür təxribatçı əməllərə başladı.



Amma Ermənistan silahlı birləşmələri bu dəfə Azərbaycandan bir qarış da olsun yeni ərazi qopara bilmədi. Əksinə, Tovuz döyüşləri göstərdi ki, əgər belə bir istək olsa, bu gün Ermənistan ərazisinin böyük bir hissəsini nəzarət altına almaq, tarixi şəhərimiz olan İrəvana belə bayraq sancmaq Azərbaycanın hərbi qüdrəti daxilindədir. Ancaq Ermənistandan fərqli olaraq Azərbaycanın qarşısında heç bir işğalçı məqsəd dayanmır. Ölkəmiz düşmənçiliyi də mərd-mərdanə, beynəlxalq hüquq normalarına, ərazi bütövlüyü prinsipinə uyğun aparır. Bilavasitə Ermənistanla sərhəddə hər hansı hərbi planının olmadığını, haqq davasını yalnız işğal edilmiş torpaqlarımızın azadlığı uğrunda apardığını nümayiş etdirir.

Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş toplantısındakı çıxışında Azərbaycan Prezidenti bildirdi ki, hazırda Azərbaycanla Ermənistanın dövlət sərhədindəki operativ vəziyyət bizi tamamilə qane edir. *"Biz istənilən vaxtda, lazım olan vaxtda bu günlərdə yaradılmış əlavə imkanlardan, o cümlədən, döyüş məntəqələrinin yeni yerləşməsindən istifadə edib öz sözümüzü deyəcəyik"*.

## Aradan qaldırılan tarixi yanlışlar

Azərbaycan düşmən üzərindəki hərbi qələbələri ilə ötən əsrin 90-cı illərinin əvvəllərində hakimiyyəti təsadüfən ələ keçirmiş səriştəsiz, naşı insanların yol verdikləri böyük tarixi yanlışların acı nəticələrini aradan qaldırır. Son əməliyyatlar göstərir ki, Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz. Onlar hətta Azərbaycanda nizami ordunun olmadığı, ölkəmizin ağır sosial-iqtisadi böhran şəraitində yaşadığı dövrlərdə də torpaqlarımızı işğal edə bilməzdilər.

Bu məsələdə Erməni işğalçılarına həmin dövrdə əsas məqsədi hakimiyyət uğrunda döyüşmək olan Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanəti kömək etdi. Azərbaycanda vəziyyəti qarışdıraraq, hərc-mərclik mühitində hakimiyyətə gəlmək üçün onlar satqınlıq yolu tutdular. Azərbaycan Xalq Cəbhəsinin sıralarında təmsil olunub Vətəni səmimi-qəlbdən sevən, torpaq uğrunda canını fəda edən igid oğullarımızın mübarizliyi, milli qeyrəti də bu xəyanətkarlara mane ola bilmədi. Naşı siyasətçilər nəyin bahasına olursa-olsun hakimiyyətə gəlməkdən ötrü torpaqları düşmənə təslim etdilər. Bu, xəyanətin ən böyüyü idi. Azərbaycan Xalq Cəbhəsi məhz bu xəyanət nəticəsində hakimiyyətə gəldi. Və Ermənistan həmin illərdə Azərbaycanda yaranmış hərc-mərclikdən, anarxiyadan, xaosdan istifadə edərək torpaqlarımızı işğal etdi.

Amma xəyanətin ömrü qısa olur. Xalqın gözü tərəzidir. İnsanlar kimin-kim olduğunu yaxşı gördülər. Tarix hər kəsin obyektiv qiymətini verdi. Hakimiyyətə xəyanət yolu ilə gələnlər Vətənin dar günündə fərarilik edərək idarəçilikdən uzaqlaşdılar. Yaranmış qarışıqlıqdan istifadə edən Ermənistan Qarabağ ətrafındakı bir neçə rayonu da işğal etdi. Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra böyük zəhmət bahasına ölkədə xaosun, anarxiyanın, nizamsızlığın qarşısını aldı, respublikanı vətəndaş müharibəsinə sürükləyən silahlı qüvvələri zərərsizləşdirdi. Amma düşmənin daxilimizdəki havadarlarının əli ilə işğal etdiyi torpaqlarımızın azad edilməsi məsələsi artıq böyük bir düyünə çevrilərək dünya birliyində yalnız Prezidentin siyasi imicinə və müdrik addımlarına bağlıdır.

## Sapı özümüzdən olan baltalar

O dövrün bəzi "məşhurları" əfsuslar olsun ki, hələ də ortalarda dolaşırlar. Azərbaycan Ordusunun düşmənə ağır zərbə vurduğu vaxtlarda kimsə xaricdə əyləşib Azərbaycana barmaq silkələməyə cəhd göstərir. Başqa birisi sosial şəbəkələrdə yaydığı səs yazıları ilə əhali arasında çaşqınlıq yaratmağa can atır. Bu sayaq ünsürlərin təxribatlarını iyulun 14-ü gecəsi Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilən aksiyalarda da müşahidə etdik.

Bu aksiyalar cəmiyyətimizdəki yüksək vətənpərvərlik ruhunun ifadəsi idi. Ordumuza, Ali Baş Komandanımıza dəstək niyyəti ilə yürüşlər keçirən şəxslərin, xüsusilə də Qarabağ müharibəsindən sonra dünyaya gəlmiş gənclərin savaş arzusu, Vətən təəssübkeşliyi, ordu sıralarında qulluq etmək niyyəti qürur doğururdu. Bu aksiya Azərbaycan gəncinin milli ruhu, milli qeyrəti, böyüklərindən aldıqları qəhrəmanlıq dərslərinin, cəmiyyətimizdə aparılan vətənpərvərlik təbliğatının, Ali Baş Komandanımızın göstərdiyi şəxsi nümunənin fərəhli nəticələridir. Bu nəticələrdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın illərdən bəridir ki, Vətən adına həyata keçirdiyi nurlu fəaliyyətin, həm cənab İlham Əliyevə, həm də onun şəxsiyyətinə olan ümumxalq məhəbbətinin böyük rolu var.

Cəmiyyətimiz ürəkdən gələn bir coşğu ilə düşmənə daha bir göz dağı çəkdi. Azərbaycanı sevən insanların haqq mövqeyindən bir addım da geri çəkilməyəcəklərini, bu savaşın işğal olunmuş torpaqlarımızın azadlığı gününə qədər eyni qətiyyətlə davam edəcəyinə bütün dünya şahid oldu. İştirakçıların öz Vətən sevgilərini ifadə etmələri ordumuzun, Ali Baş Komandanımızın mövqeyindən yanaşmalarını görən polis aksiyaya müdaxilə etmirdi. Minlərlə insanın Bakının müxtəlif yerlərindən vətənpərvərlik şüarları səsləndirərək milli qürur yerimiz olan Şəhidlər xiyabanına doğru axışması böyük bir həmrəylik mənzərəsi idi. Azərbaycanı sevən hər kəs bu mənzərə ilə ancaq qürur duya bilərdi.

Adamın ağlına belə gəlməzdi ki, insanların səmimi hisslərindən təxribatçı məqsədlərlə istifadə etməyə cəhd göstərənlər olsun. Təəssüf ki, belələri yenə tapıldı. Öz mənfur niyyətləri ilə düşmən dəyirmanına su tökənlər izdihamın sonunu təxribatçı məqsədlərinə bağlamağa cəhd göstərdilər. Vəziyyətdən istifadə edib gəncləri yoldan çıxarmağa çalışdılar. Ötən əsrin 90-cı illərinin əvvəllərində olduğu kimi, xaos, hərc-mərclik yaradıb çirkin niyyətlərinə çatacaqlarını xəyal etdilər. Yürüşün bir qrup iştirakçısı təxribatçıların təhriki ilə Milli Məclisin binasına daxil oldu. İçəridə müəyyən vandalizm hərəkətləri, dağıntılar törədildi. Başqa bir qrup isə küçədə polis maşınını çevirdi. Kimlərsə xalqla polisi üz-üzə qoymaq, milli həmrəyliyə xələl gətirməyə, araya təfriqə salmağa cəhd göstərdilər.

Milli mənsubiyyətlərini itirmiş, ali dəyəri yadlara satmış bu ünsürlər açıq-aşkar ermənilərlə işbirliklərini, ermənipərəst dairələrin sifarişləri əsasında hərəkət etdiklərini növbəti dəfə sübuta yetirdilər.

Amma Azərbaycan polisinin təmkinli davranışları, dövlətə, nizamnamə qaydalarına sadiqliyi, eyni zamanda, Vətənə sevgisi bu təxribatçı hərəkətlərin qarşısını aldı. Polis belə ünsürlərə öz niyyətlərinə çatmağa imkan vermədi. İzdihama qoşulub Azərbaycan dövlətinə qarşı hansısa iyrənc ssenarini icra etməyə çalışanlara, bu ssenarinin sifarişçilərinə bir daha isbat olundu ki, artıq 90-cı illərin əvvəlləri deyil. Heç kim dövlətə güc göstərə bilməz. Azərbaycan dövləti onun milli maraqlarına qarşı addım atan bütün ünsürləri dərhal yerində oturtmaq qüdrətinə sahibdir.

Həmin gecə gördük ki, düşmənimiz təkcə cəbhə bölgələrində Azərbaycana qarşı təxribatlar törədən, Vətənin igid övladlarının qətlinə bais olan işğalçı Ermənistan deyil. Hələ ki, aramızda da daxili düşmənlər var. Hərbçilərimiz səngərdə erməni quldurlarına qarşı döyüşüb qalibiyyət qazandıqları kimi, ölkənin daxilindəki sapı özümüzdən olan baltaların ifşası, ictimai qınağa məruz qoyularaq zərərsizləşdirilməsi də cəmiyyətin sağlam düşüncəli hər bir vətəndaşının, xüsusilə, ziyalıların müqəddəs borcudur.

Belələrinə ən layiqli cavab isə könüllü qismində orduda döyüşmək istəyənlərə Azərbaycan Prezidentinin Nazirlər Kabinetinin iclasındakı tövsiyəsindən sonra on minlərlə gəncimizin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarələrində könüllü kimi qeydiyyatdan keçməsi oldu.

## "Bütün gənclərimiz qəhrəmanlarımıza oxşamalıdırlar"

Şəhid generalımız Polad Həşimovla polkovnik İlqar Mirzəyevin dəfn mərasimi zamanı onların yaxınlarına telefon açıb başsağlığı verən Azərbaycan Prezidenti şəhid İ. Mirzəyevin oğlu Elvinə verdiyi tövsiyələrini Nazirlər Kabinetinin iclasındakı çıxışında da diqqətə çatdırdı: "Dedim ki, o, atasına oxşamalıdır, bizim bütün gənclərimiz qəhrəmanlarımıza oxşamalıdırlar. Onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib".

Yeri gəlmişkən qeyd edim ki, qəhrəman İlqar Mirzəyevin övladı - Elvin Mirzəyev bizim doğma təhsil ocağının - Bakı Slavyan Universitetinin tələbəsidir. Bu günə qədər tələbə statusu daşıyırdı. Vətənin ərazi bütövlüyünün keşiyində dayanmış igid bir hərbçinin övladı olmağın məsuliyyəti vardı üzərində. Atasının şəhadətindən sonra qazanılan adın şərəfi və məsuliyyəti isə indi daha böyükdür. Elvin indi şəhid oğludur. Vətən uğrunda canını vermiş qəhrəmanın davamçısıdır.

Qəhrəmanlarımızın övladlarına təhsil verməkdən, belə gənclərimizi gələcəyə hazırlamaqdan böyük qürur duyuruq. Onlar bizə canımız qədər əzizdirlər. Əminik ki, Elvin kimi gənclərimiz də qəhrəman ataları kimi Vətənə sevgilərini əməlləri ilə göstərəcəklər. Atalarının döyüş bölgələrindəki fədakarlıqlarını öz bilik və bacarıqları, Azərbaycanın inkişafına layiqli töhfələri ilə davam etdirəcəklər.

Şəhid atalarının o günləri görə bilməyəcəklərini düşünəndə dərin bir qüssə ilə yanaşı, qəlbimizdə qəddar, amansız düşmənə nifrətin hüdudu olmur. Amma belə bir əminliklə təsəlli tapırıq ki, onların ruhu hər zaman başımız üzərində olacaq. Qəhrəmanlarımızın əbədi ömrü tariximizə şərəf gətirəcək. Ölümün gözünə dik baxan şəhidlərimiz mənsub olduqları xalqın igidliyindən, vətənpərvərliyindən bütün dünyaya ismarıclar yayan şanlı manifestimizdir.

Ölümdən güclü olmağı bacarmaqdır.

## O günün üfüqləri

Bu sətirləri yaza-yaza, ünlü türk yazarı Hüseyn Nihal Atsızın misralarını xatırayıram:

*Qəhrəmanlıq nə yanlız bir yüksəliş deməkdir,*
*Nə də şimşəklər kimi, parlayıb sönməməkdir,*
*Bunun üçün ölümə bir atılış gərəkdir.*
*Atıldıqdan sonra da bir daha dönməməkdir.*

Şəhidlik ölüm üzərində qalibiyyətdir. Uğrunda can verməyə on minlərlə övladı olan Vətən heç zaman məğlub olmaz, torpaqlarını düşmənə verməz, yağıdan alınmalı qisasını qiyamətə qoymaz.

*Şanlı Qələbə, Böyük Zəfər, düşmənin təslimçi məğlubiyyəti indi bizim bütün şəhidlərimizin ruhu qarşısındakı ən böyük vəzifəmiz, mənəvi öhdəliyimizdir. Fərq etməz, bu qələbə diplomatiya meydanlarında, yaxud döyüş səngərlərində olsun. İşğaldan azad edəcəyimiz torpaqlarımızda dalğalanan üçrəngli bayrağımız şəhidlərimizin o anın sevincindən şadman ruhunun aydın səmadakı rəsmi olacaq.*

*O gün uzaqda deyil, o bayraq üfüqlərdə görünməkdədir artıq...*

**Nurlana ƏLİYEVA,**
**Bakı Slavyan Universitetinin rektoru, professor,**
**Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasının sədri**

# Mediasiya institutunun yaradılması müasir dövrün tələbidir

*Müasir dövrdə sürətlə dəyişən ictimai münasibətlər sistemi insan hüquqlarının müdafiəsində daha çevik və mobil mexanizmlərin yaradılmasını xeyli dərəcədə aktuallaşdırmışdır. Belə şəraitdə milli hüquq sistemlərində şəxsiyyətin hüquq və qanuni mənafelərinin müdafiəsinin ənənəvi vasitələri ilə yanaşı, yeni modellərin müəyyən edilməsi və hüququ pozulmuş şəxslərin şəffaf münasibətlər şəraitində alternativ müdafiə vasitələrini seçmək imkanlarının olması vacib məsələlərdən birinə çevrilir. Birmənalı söyləmək olar ki, ölkəmizin son dövrlər əldə etdiyi nailiyyətlər həm də şəffaflığın dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilməsi ilə bağlıdır. Bu baxımdan "Mediasiya haqqında" qanunun qəbul edilməsinin əhəmiyyəti böyükdür.*

***Hüquq üzrə elmlər doktoru Mirəli Kazımov**dan bu qanunun qəbul olunmasının zəruriyyəti və mahiyyəti barədə danışmağı xahiş etdik.*

- Prezident İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Bu səbəbdən şəffaflıq Azərbaycanın müasir dövlət siyasətini xarakterizə edən əsas cəhətlərdən biri kimi çıxış edir.

Şəffaflıq ictimai münasibətlərdə inkişafın açarı, ədalətli əlverişli mühitin əsas şərtlərindən biridir. Ölkə həyatının bütün sahələrini yalnız tərəqqiyə doğru aparan şəffaflığın təmin edilməsi, həmçinin ictimai münasibətlərin iştirakçıları arasında ziddiyyətlərin daha əlverişli şərtlər ilə nizama salınmasına, habelə mübahisə subyektləri olan vətəndaşların vaxt və resurslarına qənaət etməyə kömək edir. Əlbəttə, belə şəraitdə müxtəlif vasitələrdən, o cümlədən mübahisələrin həllinin alternativ üsullarından istifadə olunur. Bu baxımdan milli hüquq sistemində mediasiya institutunun tətbiqi şəffaflığın təzahürlərindən biri kimi qiymətləndirilməlidir. Mediasiya mexanizminin şəxsiyyətin hüquq və qanuni mənafelərinin müdafiəsinin əlavə demokratik təminatlarından biri olacağı şübhəsizdir.

Qeyd etdiyimiz kimi, mediasiya institutu ictimai münasibətlərin konfliktli subyektləri arasında mübahisələrin şəffaf və səmərəli həlli üsullarından biri kimi çıxış edir. Çağdaş dövrdə mediasiya institutu dünyanın çox ölkəsində tətbiq olunur və onun hazırkı forması öz başlanğıcını ötən əsrin 60-cı illərində ABŞ-dan götürmüşdür. Bu ölkədə son onilliklər ərzində formalaşmış təcrübəyə əsasən, vergi orqanının ilkin mərhələdə işi udmaq şansı 30 faizdən aşağı olduqda vergi ödəyicisi ilə mübahisənin qarşılıqlı razılıq əsasında həlli yoluna üstünlük verilir, mübahisəni bu qaydada həll etmək mümkün olmadıqda, onun inzibati və ya məhkəmə icraatı qaydasında həlli yoluna müraciət edilir. Bəzi ölkələrdə mediasiya nəinki mülki-hüquqi mübahisələrə, hətta cinayət-hüquqi münasibətlərə tətbiq olunur. Bu, daha çox kontinental hüquq sistemi ölkələri (məsələn, bir sıra Avropa ölkələri, keçmiş Sovet İttifaqının tərkibində olmuş respublikalardan Litva, Latviya) üçün xarakterikdir. Bəzi ölkələrdə isə mediasiyanın tətbiqi vəziyyəti sistemsiz və parəkəndə haldadır, qanunvericilik tənzimlənməsində dəqiq müəyyən olunmuş sərhəd yoxdur.

Ölkəmizdə mediasiya institutunun yaradılması uzun müddət gündəlikdə duran məsələlərdən biri olsa da, "Mediasiya haqqında" qanun 29 mart 2019-cu il tarixdə qəbul edilmişdir. Qanun qəbul edildiyi tarixədək müvafiq beynəlxalq təcrübə öyrənilmiş və ölkəmiz üçün uyğun olan mediasiya modelinə dair təkliflər işlənib hazırlanmışdır. Qanun qəbul edildiyi müddətdən az sonra Prezidentin "Məhkəmə-Hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" imzaladığı 3 aprel 2019-cu il tarixli fərmanda mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirlərinin həyata keçirilməsi tövsiyə edilmişdir. Ötən dövr ərzində ölkəmizdə vətəndaş cəmiyyəti institutları bir sıra istiqamətlərdə mediasiya xidmətlərinin göstərilməsinə dair layihələr həyata keçirmişlər.

"Mediasiya haqqında" qanunda onun məqsədləri, prinsipləri, həyata keçirilməsi qaydaları, mediatorların statusu müəyyən edilmişdir. Qanunun 3.2-ci (iqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə bu qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur), 28-ci (iqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə ilkin mediasiya sessiyasında iştirak) və 29-cu (iqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə ilkin və sonrakı mediasiya sessiyaları) maddələrinin və həmin maddələrlə bağlı olan müddəaların 2021-ci il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulmuşdur.

Qanunvericiliyə əsasən, mediasiya - mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı müəyyən olunan prosesdir. Ümumiyyətlə, mediasiya mübahisənin üçüncü, yəni qərəzsiz tərəfin - mediatorun köməyi ilə məhkəmədənkənar, alternativ həlli formasıdır. Mediasiyanın məqsədi tərəflər arasında münaqişə səviyyəsinin azaldılması və onları razı salacaq şəkildə mübahisənin həllini təmin etməkdir.

Mediasiya prosesi tərəflər arasında bağlanılan "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" əsasında həyata keçirilir. Mediasiya danışıqlar şəraitində həyata keçirilir və bu mərhələlərdən ibarətdir:

- mediasiya prosesinə hazırlıq;
- mediasiya prosesinin başlanılması;
- tərəflərin mübahisənin mahiyyətini açıqlaması;
- tərəflərin hər biri ilə ayrı-ayrılıqda danışıq;
- mübahisənin həlli üçün təkliflərin hazırlanması;
- mediasiya prosesinin yekunlaşdırılması;
- mediasiya prosesinə xitam verilməsi;
- barışıq sazişinin icrası.

Ölkəmizdə cinayət işləri üzrə mübahisələrin həlli mediasiyanın predmetinə daxil edilməmiş, onun yalnız aşağıdakı münasibətlər üzrə tətbiqi nəzərdə tutulmuşdur:

- mülki işlər və iqtisadi mübahisələr (xarici elementli mübahisələr də daxil olmaqla);
- ailə münasibətlərindən irəli gələn mübahisələr;
- əmək münasibətlərindən irəli gələn mübahisələr;
- inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr.

Mediator - peşəkar əsasda mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflərin cəlb etdiyi və ya mediasiya təşkilatı tərəfindən təyin və qanunla müəyyən olunmuş tələblərə cavab verən fiziki şəxsdir. Mediator olmaq istəyən fiziki şəxs bu tələblərə cavab verməlidir: ali təhsilə malik olmalıdır; 25 yaşı tamam olmalıdır; ən azı 3 illik iş stajına malik olmalıdır; mediatorların ilkin hazırlığı üzrə təlimi bitirərək müvafiq sertifikat əldə etməlidir.

Bu şəxslər isə mediator ola bilməzlər: məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş şəxslər; barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan şəxslər; məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər.

2020-ci il iyulun 1-dən sonra iqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur. Bu mübahisələr üzrə ilkin mediasiya sessiyasını tərəflərin qarşılıqlı razılaşdırdığı mediator və ya mediasiya təşkilatı aparır. Tərəfin mediasiya prosesinin tətbiqi barədə təklifi digər tərəfə təqdim edildikdən sonra 10 iş günü ərzində qəbul edilmədikdə və ya tərəflər mediator və ya mediasiya təşkilatı barədə razılığa gəlmədikdə, ilkin mediasiya sessiyası tərəflərdən hər hansı birinin ilkin müraciət etdiyi, mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən mediasiya təşkilatı tərəfindən aparılır. Tərəflər mediator barədə razılığa gəlmədikdə mediatoru mediasiya təşkilatı təyin edir. Məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı mövcud olmadıqda və ya həmin mediasiya təşkilatında işə baxılması mümkün olmadıqda, tərəflərdən hər hansı birinin müraciəti əsasında mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə ilkin mediasiya sessiyasının aparılması üçün mediator müəyyən edə bilər.

Göründüyü kimi, ölkəmizdə mediator ilə mediasiya tərəfləri arasında qarşılıqlı əlaqənin məzmunu daha çox mülki-hüquqi münasibətlərə əsaslanır. Belə nəticəyə gəlməyə adıçəkilən qanunun müddəalarının araşdırılması, mediasiyanın könüllülük, tərəflərin bərabərliyi və əməkdaşlığı kimi prinsiplər üzrə həyata keçirilməsi əsas verir. Bu, həm də mediasiya tərəflərinin heç birinin digərindən üstün olmadığı, mediatorun seçilməsində sərbəst olmaları, heç kəsin iradəsinə zidd şəkildə mediasiya prosesinə cəlb edilmədiyi, mediasiyanın istənilən mərhələsində ondan imtinanın mümkün olması, mediasiya zamanı dövlət və yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin mediatorun fəaliyyətinə müdaxiləsinin yolverilməzliyi və digər bu kimi mühüm hallar ilə əsaslandırılır.

Müasir dövrdə bir çox ölkələrdə cinayət məsuliyyətinin həlli zamanı da alternativ tədbirlərin tətbiqinə səylər göstərilir. Bu cür tədbirlərin tətbiqi istintaq və məhkəmə sistemində iş yükünün azalmasına, cəza icra müəssisələrinin lüzumsuz yüklənilməməsinə, həmçinin müvafiq şərtlər daxilində cinayətdən zərər çəkmiş şəxslərin hüquqlarının və dövlətin maraqlarının təmin olunmasına xidmət edir.

İctimai təhlükəli əməl törətmiş şəxslərə münasibətdə ilk dəfə mediativ proqram 1974-cü ildə Kanadada (Ontario ştatı) tətbiq olunmuşdur. MDB dövlətlərindən isə Qazaxıstan Respublikasının 4 iyul 2014-cü il tarixli Cinayət Prosessual Məcəlləsinin 85-ci maddəsində mediator cinayət prosesinin müstəqil iştirakçısı kimi nəzərdə tutulmuş, hüquqi statusu müəyyən edilmişdir. Bu yerdə qeyd edək ki, Mediasiya institutunun inkişafının davamı olaraq yaxın gələcəkdə Azərbaycanda "Cinayət prosesində mediasiya haqqında" ayrıca qanunun qəbul edilməsi, burada mediatorun cinayət prosesinin ayrıca iştirakçısı kimi nəzərdə tutulması və Cinayət Prosessual Məcəllədə onun hüquqi statusunun tənzimlənməsi məqsədəuyğun olardı.

***Söhbəti yazdı:***
***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***



# Azərbaycan tezliklə özünün su təhlükəsizliyini tam təmin edəcək

Hazırda su təminatı məsələsi dünyanı təhdid edən əsas problemlərdən biridir. Qlobal iqlim dəyişiklikləri və quraqlıq dünyanın hər yerində su ehtiyatlarına ciddi təsir göstərir. Bu, Azərbaycanda da belədir. Xüsusən son illər su ilə bağlı problemlər artıb ki, bunun da əsas səbəblərindən biri iqlim dəyişiklikləridir. Yağıntıların əhəmiyyətli dərəcədə azalması, orta illik temperaturun yüksəlməsi, o cümlədən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatlarının, çaylarda sululuğun səviyyəsinin aşağı düşməsi bütövlükdə su ehtiyatlarmızın azalmasına səbəb olub.

## Su təsərrüfatında mühüm layihələr həyata keçirilib

Öncə onu qeyd edək ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsindən sonra diqqət yetirilən əsas məsələlərdən biri də ölkə təsərrüfatının yenilənməsi olub. Bu məsələ demək olar ki, kompleks xarakter daşıyıb. Yəni həyata keçirilən tədbirlərdə məqsəd həm əhalinin içməli su ilə təminatını, həm də torpaqların suvarılması üçün meliorasiya infrastrukturunun təzələnməsini, həm də su ehtiyatlarının yaradılmasından ibarət olub.

İyulun 23-də keçirilən su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirədə Prezident İlham Əliyev bildirdi ki, regionların sosial-iqtisadi inkişafına dair I Dövlət Proqramının qəbul edildiyi 2004-cü ildə Azərbaycanda içməli su ilə təminat 40 faiz səviyyəsində idi. Bu gün isə bu rəqəm 70 faizə çatıb. Bakı şəhərində içməli suyu davamlı şəkildə alan əhalinin sayı 29 faiz idi. Bu gün bu rəqəm təxminən 82 faiz təşkil edir. Azərbaycanda son 17 ilin ən böyük infrastruktur sistemlərindən olan Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsi Bakı şəhərinin içməli su ilə təchizatında inqilabi dəyişikliklərə səbəb oldu. Bu kəmər sırf yerli mənbələr üzərində inşa edilmiş böyük layihədir. Bu kəmər həm də Azərbaycanın neftdən gələn gəlirlərini ölkənin yüksəlişi istiqamətində səmərəli istifadəsinin göstəricisidir.

Regionlara gəldikdə isə, əhalinin içməli su ilə əhatə dairəsi 2004-cü ildə cəmi 9 faiz, indi isə 63 faizdir. Bu sahədə müsbət dəyişikliklər yerli su potensialının hərəkətə gətirilməsinin, yeni artezian quyularının qazılmasının, çaylarda sutəmizləyici qurğuların sayının artırılmasının nəticəsidir.

Bu illərdə Azərbaycanda dörd yeni su anbarı yaradılıb. Bunun da nəticəsində becərilməyən minlərlə hektar torpaq sahəsi əkinə cəlb olunub. Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay kimi su anbarlarının kənd təsərrüfatı istehsalının artırılmasında rolu olduqca mühümdür. Bu anbarlarda yaradılmış su ehtiyatlarının həcmi 470 milyon kubmetrdir.

Bütün bunlar göstərir ki, regionların sosial-iqtisadi inkişafına dair proqramlarının icrası çərçivəsində ölkənin su təsərrüfatında olduqca möhtəşəm layihələr həyata keçirilib. Əgər həmin layihələr olmasaydı, bu gün su təchizatında daha ciddi problemlərin yaşanması qaçılmaz idi.

## Bəzi hallarda itkilər 50 faizə çatır

Lakin qeyd edildiyi kimi, son illərdə baş verən iqlim dəyişiklikləri, yağıntıların azalması su təchizatında ciddi problemlər yaradıb. Təbii hadisələrlə yanaşı, kənd təsərrüfatının inkişafı, əkin sahələrinin, suvarma və içməli su təchizatı üzrə şəbəkələrin genişləndirilməsi nəticəsində suya tələbatın artması da ölkəmizdə su çatışmazlığını şərtləndirir. Bu baxımdan, xüsusilə cari ildə ölkənin su ehtiyatları sahəsində gərgin vəziyyət yaranıb. Hazırda əsas su anbarlarında 20,5 milyard kubmetr tutuma qarşı əvvəlki illərdən kəskin aşağı səviyyədə - cəmi 11,1 milyard kubmetr su mövcuddur ki, bunun da 8,6 milyard kubmetri ölü həcmdir. Ona görə kənd təsərrüfatının suvarılmasında və içməli su ilə təminatda qıtlıq yaşanır. Vəziyyətin qiymətləndirilməsi nəticəsində hazırda respublikamızda çox böyük su itkilərinin baş verdiyi də məlum olub.

İyulun 23-də Prezident İlham Əliyevin yanında videoformatda keçirilən müşavirə su təsərrüfatında mövcud olan problemlərin müzakirəsinə həsr olunmuşdu. Dövlət başçısı çıxışında su itkilərinin bəzi hallarda 40-50 faizə çatdığını bildirdi: *"Su resursları ekoloji tarazlığa, kənd təsərrüfatının inkişafına çox böyük təsir göstərir. Biz kənd təsərrüfatımızı intensiv yollarla inkişaf etdirməliyik və buna nail olmaq üçün kifayət qədər su mənbələrimiz olmalıdır və bu, var. Sadəcə olaraq, əgər dəhşətli dərəcədə bu itkilər olmasaydı, biz mövcud su resursları ilə özümüzü tam təmin edə bilərdik. İndi bu məsələ araşdırılır, bəzi hallarda itkilər 40 faizdir və 50 faizə çatır, bu, dözülməzdir. Biz suyu itiririk. Beləliklə, o, əkin sahəsinə, insanların evinə çatmır, əksinə, torpaqlara ziyan vurur".*

Dövlət başçısının qeyd etdiyi kimi, quraqlıq və bəzi hallarda aidiyyəti qurumların laqeyd münasibəti nəticəsində sudan istifadədə çox ciddi problemlər yaranıb. Böhranlı vəziyyətdə nə etməyin lazım olduğunu aidiyyəti qurumlar düzgün müəyyən edə bilməyiblər. O cümlədən indiyədək ölkəmizin su balansı tərtib edilməyib, yeraltı, yerüstü su ehtiyatları qiymətləndirilməyib. Digər tərəfdən ölkədə su məsələləri ilə məşğul olan bir neçə dövlət qurumu olsa da, onların arasında koordinasiya lazımi səviyyədə deyildir.

## Vəziyyət nəzarətdədir

Su problemlərinin həlli çoxdan Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Belə ki, hələ aprel ayında Prezident İlham Əliyevin sərəncamına əsasən, ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Baş Nazirin müavini Şahin Mustafayevin rəhbərliyi ilə komissiya yaradılıb. Müşavirədə deyildiyi kimi, su təsərrüfatı üzrə idarəetmədə sahələrarası koordinasiyanın zəifliyi, sudan istifadədə itkilərin yüksək olması, sudan optimal bölgü əsasında və qənaətlə istifadə edilməməsi, suvarmada suya qənaət edən müasir texnologiyalardan istifadənin aşağı səviyyədə olması, nəzarətdənkənar qoşulmalar, uçot və nəzarət sisteminin zəifliyi kimi problemlərin həlli istiqamətində tədbirlərin görülməsi komissiyaya tapşırılıb.

Komissiyanın fəaliyyəti nəticəsində su ehtiyatları barədə operativ məlumat sistemi qurulub, sudan səmərəli istifadə ilə bağlı verilmiş tapşırıqların icrasına gündəlik nəzarət təmin olunub. Xüsusi əhəmiyyətə malik Mingəçevir və Ceyranbatan su anbarları üzrə suvarma, içməli su təchizatı və energetika məqsədləri üçün sudan istifadə rejimi təsdiq edilib.

Bəzi təsərrüfat və infrastruktur obyektlərinin nəzarətsiz qalması da problemləri yaradan səbəblərdəndir. Su anbarlarından çıxan boru və kanal xətlərində qanunsuz qoşulmalar olub ki, bu da suyun ədalətli bölgüsünə ziyan vurub. Aydın məsələdir ki, təsərrüfat sahibləri bu sudan istifadə edir. Amma o birilərinə çatmır, bir də ki, israfçılığa yol verilir. Ona görə də komissiya tərəfindən məhdud su ehtiyatlarının ədalətli, optimal və proporsional bölgüsü prinsipi əsasında 580 mindən çox əkin sahəsi üzrə suvarma qrafikləri tərtib edilib. Ən mühümü də odur ki, bütün aidiyyəti qurumların bu məsələlərlə bağlı koordinasiyalı fəaliyyəti təmin olunub.

Ən mühüm vəzifə sudan istifadə zamanı itkiyə yol verilməməsidir. Bunun üçün içməli su təchizatı şəbəkələrinə nəzarətdənkənar qoşulmaların aradan qaldırılması, sayğaclaşmanın başa çatdırılması mühüm əhəmiyyət kəsb edir. Suvarmaya gəldikdə isə, kanalların əksəriyyətinin torpaq məcralardan olması itkilərin əsas səbəblərindən biridir. Artıq su ehtiyatlarının səmərəli istifadəsi məqsədilə suvarma kanallarının əsaslı təmiri və yenidən qurulması üzrə prioritet layihələrlə bağlı təkliflər hazırlanır. Bundan başqa, ölkədə su ehtiyatlarının artırılması və bu istiqamətdə dağ çaylarının sularının yığılması üçün relyefə uyğun yaradılması nəzərdə tutulan sututarlar üzrə də prioritet layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Onu da qeyd edək ki, Azərbaycan bu sahədə beynəlxalq maliyyə institutları ilə də əməkdaşlıq edir. Belə ki, Azərbaycanın Dünya Bankını və Asiya İnkişaf Bankını əməkdaşlığa dəvət etdiyi sahələrdən biri suvarma sistemlərinin yenidən qurulması ilə bağlıdır.

Azərbaycanın su ehtiyatlarının böyük qismi ölkə xaricində fomalaşır. Digər tərəfdən ekspertlərin rəyinə görə, Azərbaycanda əgər bu gün lazımi addımlar atılmasa, 2030-cu ilə qədər bəzi ərazilərdə səhralaşma prosesi gedə bilər. Prezident İlham Əliyevin yanında keçirilən videoformatda müşavirədə su ilə bağlı bütün problemlər, onları yaradan səbəblər və həlli yolları ətraflı müzakirə edildi. Bütün bunlar göstərir ki, Azərbaycan tezliklə özünün su təhlükəsizliyini tam təmin edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ölkənin aqrar sektoru sürətlə müasir texnologiyalara yiyələnir

*Əvvəli 1-ci səh.*

Bu cür mürəkkəb durumda bütün ölkələr, o cümlədən Azərbaycan üçün də ərzaq təhlükəsizliyi ən vacib məsələlədən birinə çevrilir.

İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da ölkənin ərzaq təhlükəsizliyi məsələsi geniş araşdırılmış, problemlərin həlli yolları ətraflı müzakirə edilmişdir. İclasda Azərbaycan Prezidenti ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işlərdən danışmış, vacib tədbirlərin zamanında həyata keçirilməsi üçün müvafiq göstərişlər vermişdir. İlham Əliyev bu məsələyə belə münasibət bildirmişdir: "Ərzaq təhlükəsizliyi o demək deyil ki, biz bütün ərzaq məhsullarını, yaxud da kənd təsərrüfatı məhsullarını Azərbaycanda tam həcmdə istehsal etməliyik. Biz gərək ərzaq təhlükəsizliyinə, necə deyərlər, düşünülmüş şəkildə yanaşaq. Bu ərzaq təhlükəsizliyinin böyük hissəsi, təbii ki, Azərbaycanda formalaşmalıdır və əgər indi buğda istehsalını istisna etsək, bütün digər əsas ərzaq qida məhsulları ilə özümüzü böyük dərəcədə təmin edirik. Ancaq eyni zamanda bu, bizim ixrac imkanlarımıza da maneçilik törətməməlidir. İxrac bazarlarına çıxara biləcək məhsullara da diqqət yetirilməlidir. Ona görə həm Kənd Təsərrüfatı Nazirliyi və eyni zamanda İqtisadiyyat Nazirliyi, digər qurumlar bu məsələ ilə məşğuldurlar".

Dövlət başçısının tapşırıqlarına əsasən, aqrar sahənin inkişafı istiqamətində davamlı tədbirlər həyata keçirilir. Pandemiya dövründə müəyyən çətinliklər yaransa da, aqrar sektorun fəaliyyətinin sistemli surətdə qurulması, kənd təsərrüfatı məhsullarının istehsalı üçün zəruri tədbirlər görülür. Xüsusi karantin rejiminin tətbiqi ilə bağlı ciddi məhdudlaşdırıcı addımlar atılsa da, fermerlər hərəkətlərində sərbəstdir, onların mineral gübrə, pestisid, toxum təchizatı maneəsiz həyata keçirilir, kənd təsərrüfatı texnikalarının hərəkəti təmin edilir.



Nəticədə əhalinin kənd təsərrüfatı məhsulları ilə təminatında ciddi çətinliklər müşahidə olunmur. Bü gün 16 hektarlıq sahədə yerləşən "Meyvəli" bazarına ölkənin bütün bölgələrindən kənd təsərrüfatı məhsullarının geniş çeşidləri daşınır. Təklif edilən topdansatış qiymətləri ötənildəkindən aşağıdır. Bu isə həmin məhsulların əlçatanlığı deməkdir.

Ərzaq təhlükəsizliyində taxıl məhsullarının tədarükü də xüsusi əhəmiyyət kəsb edir. Taxıl biçininə 1700-dən artıq kombayn çıxmış, üstəlik, Kənd Təsərrüfatı Nazirliyi 700-ə yaxın kombaynı biçinə cəlb etmişdir. Hələlik orta məhsuldarlıq 31,5 sentnerdir.

Builki quraqlıq bir sıra Aran rayonlarında yüz min hektar ərazidə taxılın becərilməsində problem yaratsa da, əksər rayonlarda taxıl üzrə məhsuldarlıq əvvəlki illə müqayisədə artaraq, məsələn, Bərdədə 44,1, Saatlıda 40,8, Samuxda 40,3 sentnerə çatmışdır. Bu göstərici bir sıra özəl, o cümlədən nazirliyin pilot təsərrüfatlarında 60 sentner olmuşdur.

Eyni zamanda aqrar sektorun digər sahələrində müsbət dinamika müşahidə olunur. Bu ilin birinci yarısında bitkiçilik məhsullarının istehsalında xeyli yüksək rəqəmlər əldə edilmişdir. 2020-ci ilin 6 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,2 faiz çox tərəvəz, 5,3 faiz çox meyvə və giləmeyvə, 9,7 faiz çox kartof istehsal olunmuşdur.

Hazırda aqrar sektorda təsərrüfat fəaliyyətinin ən qızğın dövrüdür və dövlətin davamlı dəstəyi fermerləri daha yüksək nəticələr əldə etməyə ruhlandırır, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması üçün qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirməyə imkan yaradır.

Ən vacibi qarşıdakı hədəflərin düzgün təyin edilməsi, ərzaq təhlükəsizliyinin daim diqqət mərkəzində saxlanılması, ixrac imkanlarının genişləndirilməsi, bütünlükdə, kənd təsərrüfatının intensiv yollarla inkişafıdır. Bu baxımdan Nazirlər Kabinetinin iclasında da qeyd edildiyi kimi, 50 min hektarlıq sahədə qarğıdalının əkilməsi xüsusi əhəmiyyət kəsb edir və bu pilot layihə kimi bütün fermerlər üçün maraqlı ola bilər.

Onu da qeyd edək ki, qabaqcıl təsərrüfatların təcrübəsinin öyrənilməsi, aqroparkların nümayəndələrinin regional mərkəzlərdə təlim kurslarında iştirak etməsi, təcrübə mübadiləsinin aparılması, aqrar sektor üzrə peşə kurslarının yaradılması zərurətə çevrilir.

Dünyanın, o cümlədən Azərbaycanın aqrar sektorunda yeni texnologiyalar, müasir texnikalar sürətlə tətbiq edilir. Ötən il keçirilən islahat nəticəsində baş tutan liberallaşma bu il 100-dən artıq şirkət vasitəsilə 2380 kənd təsərrüfatı texnikasının fermerlərə satılmasına imkan yaratmışdır. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə təxminən iki dəfədən artıqdır. Müasir texnikaların ölkəyə gətirilməsi və satışı davam edir. Artıq fermerlər özləri müasir texnologiyaların, yeni becərmə üsullarının tətbiqində maraqlıdırlar. Başa düşürlər ki, işlərində nə qədər müasir təcrübəyə arxalansalar, bir o qədər məhsulun maya dəyəri aşağı düşəcək, məhsuldarlıq artacaq, xarici bazarlarda rəqabətə asanlıqla davam gətirəcəklər.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Dünya Azərbaycanı dəstəkləyir, Ermənistanın təcavüzünü pisləyir

## Türkiyədə Azərbaycana dəstək məqsədilə izdihamlı aksiyalar keçirilib



Azərbaycanın Tovuz rayonu istiqamətindəki dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatlara və işğalçı siyasətini davam etdirməsinə etiraz olaraq qardaş Türkiyədə ölkəmizə dəstək məqsədilə izdihamlı aksiyalar keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Ankaranın Keçiörən Bələdiyyəsinin qarşısında "Bir millət, iki dövlətik. Azərbaycan-Türk Ordusunun əsgəriyik" şüarı ilə tədbir keçirilib. Aksiyaya Keçiörən Bələdiyyəsinin üzvləri, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun nümayəndələri, Ankarada yaşayan azərbaycanlılar və yerli ictimaiyyətin təmsilçiləri qatılıblar.

Aksiyada bələdiyyə sədri Turqut Altınok, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım, ölkəmizin Türkiyədəki səfiri Xəzər İbrahim, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun İdarə Heyətinin sədri, professor Aygün Attar çıxış ediblər. Çıxışlarda iyulun 23-ü Azərbaycanın Ağdam rayonunun Ermənistan tərəfindən işğalının 27-ci ildönümünün olduğu xatırladılıb. Bildirilib ki, təkcə Qarabağ deyil, Ermənistanla sərhəd olan bütün ərazilərimiz hər zaman erməni hücumlarına məruz qalır. Türkiyənin prinsipial mövqe nümayiş etdirərək, Azərbaycanın yanında olmasının dövlətimizi və xalqımızı gücləndirdiyi vurğulanıb.

Çıxış edənlər Ermənistana işğalçı və təcavüzkar siyasətindən əl çəkməyi tövsiyə edərək, əks-təqdirdə bu vəziyyətin Ermənistanın əleyhinə işləyəcəyini nəzərə çatdırıblar. Aksiyada beynəlxalq təşkilatların tutduğu loyal mövqe kəskin tənqid olunub, Türkiyə və Azərbaycanın güclərini birləşdirərək, bu problemi həll etməsinin vacibliyi qeyd olunub.

Türkiyənin Kayseri şəhərindəki Cümhuriyyət meydanında baş tutan aksiya isə "Turan" dərnəyinin təşkilatçılığı və 53 qeyri-hökumət təşkilatının iştirakı ilə gerçəkləşdirilib. Azərbaycana dəstək aksiyasına Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Şimali Kipr icmalarının təmsilçiləri iştirak ediblər. "7 dövlət, bir millət, susma artıq üsyan et, bitsin artıq bu zillət!", "Ya Qarabağ, ya ölüm!", "Qansa qan, cansa can, səninləyik, Azərbaycan!", "Qarabağ Türk torpağıdır!" şüarlarının səsləndirildiyi aksiyada Kayseridəki Ərciyəz universitetinin müəllimləri, azərbaycanlı ziyalılar və tələbələr çıxış edərək Ermənistanın işğalçı siyasətini pisləyiblər.

Aksiyada Türk dünyası şəhidlərinin əziz xatirəsi böyük ehtiramla anılıb. Mitinq şair Əhməd Cavadın sözlərinə Üzeyir Hacıbəyovun bəstələdiyi "Çırpınırdın Qara dəniz" mahnısının ifası ilə başa çatıb.

Türkiyənin Trabzon şəhərində, Sakarya şəhərinin Adapazarı Demokratiya Meydanında, İstanbulun Bakırköy rayonundakı Azadlıq meydanında Azərbaycan Ordusuna dəstək məqsədilə aksiyalar keçirilib. Soydaşlarımızla yanaşı, yerli ictimaiyyətin çoxsaylı nümayəndələrinin iştirak etdikləri aksiyalarda Tovuz cəbhəsində həlak olan şəhidlərimiz anılıb, Ermənistanın işğalçı və təcavüzkar siyasəti qınanıb, "Qarabağ Azərbaycandır!", "Ermənistanın işğalçı siyasətinə son qoyulsun!", "Şəhidlər ölməz, vətən bölünməz!", "Xocalıya ədalət!" və digər şüarlar səsləndirilib.

Türkiyə Dövlət Müəssisələri İşçilərinin İnkişafı və Həmrəyliyi Fondunun Sakarya şöbəsinin rəhbəri Recai Ciran və Sakarya Universiteti Azərbaycan-Türkiyə Qardaşlıq Platformunun rəhbəri Vüqar Nəsirovun birgə bəyanatında Ermənistanın işğalçılıq və soyqırımı siyasətinə etiraz edilib. Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsinə, minlərlə insanın qətlə yetirilməsinə baxmayaraq, dünya ictimaiyyətinin bu vəhşiliyə biganə qalmasına bir daha kəskin etiraz bildirilib.

Xəzər Folklor Təhsil və Araşdırma Mərkəzinin bəyanatında isə vurğulanıb ki, insan haqlarını kobudcasına pozan Ermənistan ən qısa müddətdə beynəlxalq məhkəmələrdə mühakimə olunmalı və cəzalandırılmalıdır. Dünyanın müxtəlif ölkələrində Ermənistanın terrorizm və zorakılıq siyasətinə etiraz olaraq keçirilən aksiyalara erməni diasporunun vəhşicəsinə hücumlar etməsi də buna sübutdur.

"Türkiyə və Azərbaycan hökumətləri 30 ildir işğal altındakı Azərbaycan ərazilərinin azad edilməsi və qaçqın həyatı yaşayan azərbaycanlıların torpaqlarına qaytarılması üçün sülh siyasəti yürüdür. Bu ədalətli mübarizədə Azərbaycanın yanında olduğumuzu bildirir və bütün şəhidlərimizi mərhəmət və minnətdarlıqla yad edirik. İnsanlıq və sülh əleyhinə cinayətlər törədən Ermənistanı pisləyirik və qınayırıq", - deyə bəyanatda qeyd olunub.

## Ermənistanın Azərbaycana qarşı son təxribatları ilə əlaqədar Londonda dinc aksiya və yürüş olub

Böyük Britaniyada yaşayan azərbaycanlı icmanın 300-dək üzvü Ermənistanın Azərbaycana qarşı son təxribatları ilə əlaqədar Londonda dinc aksiya və yürüş keçirib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə BBC-nin London ofisi qarşısında aksiya keçirilib, həmyerlilərimiz səsgücləndiricilərdən istifadə edərək müxtəlif şüarlar ("Yetər!", "Erməni təcavüzünə son!") və Azərbaycanın Dövlət himnini səsləndiriblər.

Sonra aksiya iştirakçıları Trafalqar meydanından və Britaniya Baş Nazirinin ofisinin önündən keçərək parlament binasına doğru yürüş edib və yolboyu "Biz sülh istəyirik!", "Biz ədalət istəyirik!", "Qarabağ bizimdir - bizim olacaq!" kimi şüarlar səsləndirib, ermənilərin Los-Ancelesdə azərbaycanlılara qarşı zorakılığına diqqət çəkərək, bu cür zorakı təxribatlara son qoyulmasının vacibliyini vurğulayıblar. Yürüş iştirakçıları Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş rayonlarının adlarını ucadan sadalayıblar.




Həmvətənlərimiz Britaniya parlamentinin qarşısında daha bir aksiya keçirib, Azərbaycan həqiqətlərinə diqqət çəkərək, Ermənistanın təcavüzünə son qoyulmasını tələb ediblər. Onlar "Sarı gəlin" mahnısını xorla oxuyublar.

Təhlükəsizliyin təmin edilməsi üçün əraziyə çoxsaylı polis qüvvələri və özəl təhlükəsizlik şirkətinin nümayəndələri cəlb edilib. Yalnız BBC-nin ofisinin qarşısında keçirilən aksiya zamanı Britaniyadakı erməni icması 50 nəfərdən az nümayəndə ilə tədbiri pozmağa çalışsa da, azərbaycanlıların sayca çox olduğunu və ərazidə güclü təhlükəsizlik tədbirlərinin həyata keçirildiyini görərək yürüşə mane olmaqdan, eləcə də parlamentin qarşısındakı aksiyaya gəlməkdən çəkinib.

## Amerikalı israillilərin ən böyük təşkilatı Los-Ancelesdə azərbaycanlılara qarşı erməni vəhşiliklərini pisləyib




Amerikalı israillilərin ən böyük təşkilatı olan nüfuzlu İsrail-Amerika Şurası (IAC) iyulun 21-də Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun qarşısında erməni daşnaklarının Azərbaycan icmasının üzvlərinə qarşı törətdikləri vəhşilikləri pisləyib.

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a verilən məlumata görə, IAC-ın yaydığı açıqlamada Baş Konsulluğun qarşısında toplaşmış azərbaycanlılara hücumun qəbuledilməz olduğu bildirilib. Həmçinin, təhlükəsiz şəkildə söz və toplaşmaq azadlığının qorunub saxlanılmasının vacibliyi diqqətə çatdırılıb və dinc nümayişçilərə qarşı zorakılığın ABŞ cəmiyyətinə və demokratik dəyərlərə təhdid olduğu qeyd edilib. Sonda təşkilat xəsarət alanların tez bir zamanda sağalmasını diləyib və hüquq-mühafizə orqanlarının bu istintaq işini yekunlaşdıracağına və onun nəticələrinə uyğun qətiyyətlə hərəkət edəcəyinə əminliyini ifadə edib.

Qeyd edək ki, Los-Ancelesdə fəaliyyət göstərən IAC dünyada ən sürətlə inkişaf edən yəhudi təşkilatıdır. 2007-ci ildə yaradılmış IAC 250 minə yaxın amerikalı israillini özündə birləşdirir. Los-Ancelesdəki baş konsulluğumuz bu təşkilatla uzun illərdən bəri sıx dostluq münasibətləri saxlayır.

## İspaniya mətbuatı ermənilərin Azərbaycanın diplomatik nümayəndəliklərinə qarşı törətdiyi vandalizm aktlarını qınayır


PatrimonioActual.com
La embajada de Azerbaiyán en España informa de nuevos ataques de Armenia a sus embajadas

İspaniyanın böyük oxuyucu auditoriyasına malik "Patrimonio Actual" və "Diplomat in Spain" internet portallarında radikal erməni qüvvələri tərəfindən Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə, Azərbaycan diasporunun üzvləri tərəfindən keçirilən aksiyalar zamanı dinc nümayişçilərə qarşı son dərəcə aqressiv təxribatçı əməllər törədilməsi kəskin şəkildə qınanılıb.

AZƏRTAC xəbər verir ki, məqalələrdə bu əməllərin özündə vandalizm və terror elementlərini ehtiva etməklə cinayət məsuliyyəti doğurduğu qeyd olunur.

Vurğulanır ki, radikal erməni qüvvələri tərəfindən bu cür vandalizm əməlləri əvvəllər də törədilib. 1970-1980-ci illərdə ASALA və digər erməni terror təşkilatları 70-dən çox insanı qətlə yetirib, ümumilikdə 22 ölkədə 235-dən çox terror aktı həyata keçirib. Məqalələrdə xüsusi olaraq diqqətə çatdırılır ki, 1991-ci ildə Ermənistan Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək məqsədilə terroru dövlət siyasəti vasitəsinə çevirib və Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və yeddi ətraf rayonunun işğalı prosesində ölkənin müxtəlif regionlarında terror vasitələrindən geniş istifadə edib, azərbaycanlı əhaliyə qarşı soyqırımı və etnik təmizləmə cinayətləri törədib.

Yazılarda radikal erməni qruplarının azərbaycanlı diplomatlara, eləcə də bu ölkələrdəki azərbaycanlı icmaların üzvlərinə qarşı yönəlmiş, nifrətə əsaslanan cinayət əməlləri qətiyyətlə pislənilir, azərbaycanlılara qarşı erməni təxribatlarının törədildiyi ölkələrin aidiyyəti dövlət qurumlarının məsələyə tam məsuliyyətlə yanaşmalarının vacibliyi qeyd olunur.

## Avstraliya qəzeti ermənilərin "ASALA" terror təşkilatını bərpa etmək niyyətindən yazır

Avstraliyada ingilis dilində nəşr olunan "Turkish news press" qəzeti Sidneydə fəaliyyət göstərən Avstraliya Azərbaycanlıları Assosiasiyasının (AAA) bu ölkənin federal parlamentinə müraciəti əsasında ermənilərin "ASALA" terror təşkilatını bərpa etmək niyyəti barədə məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, "ASALA" qayıdır!" adlı məqalədə iyulun 12-dən 16-dək Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində Azərbaycanla sərhəddə törətdiyi hərbi təxribatla bağlı dünyanın bir sıra ölkələrində yaşayan ermənilərin bu ölkələrdəki azərbaycanlılara qarşı təcavüz və vandalizm aktlarına dair məlumatlara geniş yer verilib. Qeyd edilir ki, ABŞ-ın Los-Anceles şəhərində keçirilən aksiya zamanı erməni gənclərin üzərində "ASALA" ("Ermənistanın azadlığı uğrunda erməni məxfi ordusu") yazılmış köynəklər geyərək hərəkət etməsi barədə internetdə yayılan fotolar böyük narahatlıq doğurur. Həmin aksiya zamanı 3 mindən çox erməninin polis səddini aşaraq oradakı 50 azərbaycanlıya hücum etməsi avstraliyalı oxucuların diqqətinə çatdırılır. Bildirilir ki, bu hücum nəticəsində ağır xəsarət alan altı nəfər, o cümlədən azərbaycanlı qadınlar xəstəxanaya yerləşdiriliblər. Buna bənzər cinayətlər Avropanın müxtəlif şəhərlərində də törədilib. Hazırda Los-Anceles polisi həmin hücumu azərbaycanlılara qarşı nifrət zəminində törədilmiş cinayət kimi araşdırır.

Məqalədə iyulun 12-dən sonra internetdə Avropanın bir çox şəhərlərində ermənilərin dinc azərbaycanlı nümayişçilərə hücum etməsi barədə çoxsaylı videoların olduğuna diqqət yönəldilir. Qeyd olunur ki, həmin videolarda ermənilərin dinc azərbaycanlıları izləməsi və onlara xəsarət yetirməsi aydın görünür.

Yazıda uzun müddət dünya ölkələrində törətdiyi terror aktları ilə tanınan "ASALA" təşkilatı barədə ətraflı məlumat da öz əksini tapır. Diqqətə çatdırılır ki, ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin 1984-cü ildə tərtib etdiyi "Ermənistanın azadlığı uğrunda erməni məxfi ordusu: davam edən beynəlxalq təhlükə" adlı hesabatında bu təşkilatın törətdiyi cinayətlər barədə ətraflı məlumat verilir. Bildirilir ki, 1980-ci illərdə Avstraliyanın Sidney və Melburn şəhərlərində türk diplomatlara qarşı terror aktı törədilib. Həmin cinayətlərə görə məsuliyyəti "ASALA" öz üzərinə götürsə də, heç kim həbs olunmayıb.

Vurğulanır ki, həmin hadisələri bu gün də yaxşı xatırlayan Avstraliyanın türk və Azərbaycan icmasının üzvləri bu ölkənin hökumət strukturlarını, yerli əhalini, deputatları sayıqlıq nümayiş etdirməyə, erməni terrorunun qarşısını almağa çağırırlar.

Məqalədə, həmçinin Ermənistandan Azərbaycana qarşı işğalçı siyasəti dayandırması, qonşu dövlətlərin əraziləri hesabına "böyük Ermənistan dövləti" yaradılmasına xidmət edən siyasətindən əl çəkməsi tələb edilir. Qeyd edilir ki, bu regionda və bütün dünyada sülhün bərqərar olması məhz Ermənistanın öz işğalçı siyasətindən əl çəkməsi nəticəsində mümkün ola bilər.

Məqaləyə erməni vandalizmini təsdiqləyən fotolar da əlavə olunub.

## Rumıniyanın "News24hours" xəbər portalı Ermənistan təxribatı barədə məqalə yayıb

Rumıniyanın nüfuzlu "News24hours.ro" xəbər portalı Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfovun "Ermənistanın növbəti təxribatının arxasında nə dayanıb?" sərlövhəli geniş məqaləsini dərc edib.




Məqalədə iyulun 12-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə Ermənistan və Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycanın mövqelərini atəşə tutduğu, cavab atəşi nəticəsində Ermənistanın hücum və strateji əhəmiyyətli yeni ərazilərin ələ keçirilməsi cəhdinin qarşısının alındığı vurğulanıb. H.Nəcəfov Ermənistan silahlı qüvvələrinin Azərbaycan mövqelərinə atəş açdığını və 12 hərbçimizin həlak olduğunu, habelə məqsədyönlü şəkildə Azərbaycanın yaşayış məntəqələrini və mülki insanları hədəfə aldığını, 76 yaşlı mülki şəxsin həlak olduğunu, çox sayda yaralıların olduğunu bildirib. Bu təxribatın düşünülmüş təcavüz aktı kimi qiymətləndirildiyini bildirən diplomat Ermənistanın bu yolla Dağlıq Qarabağ münaqişəsindən diqqəti yayındırmağa və danışıqlar prosesini pozmağa çalışdığını, regionda yeni gərginlik ocağı yaratmağa cəhd göstərdiyini, üçüncü tərəfləri və üzv olduğu hərbi-siyasi təşkilatı Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etməyə və Azərbaycana qarşı törətdiyi işğal və təcavüzün məsuliyyətindən boyun qaçırmağa çalışdığını, eyni zamanda, Şərq-Qərb dəhlizi və Azərbaycanın neft-qaz kəmərlərinə təhlükə yaratmağa səy göstərdiyini və gərginlik yaratmaqla Ermənistanın ölkədaxili ciddi sosial-iqtisadi problemlərdən diqqəti yayındırmağa çalışdığını qeyd edib. Azərbaycanın Tovuz rayonunun böyük regional layihələrin icrası baxımından strateji əhəmiyyətə malik olduğu, Avropanın enerji təhlükəsizliyinin şaxələndirilməsinə töhfə verməklə Azərbaycanın enerji ehtiyatlarının dünya bazarına çıxarılması üçün bütün infrastrukturun bu bölgədə yerləşdiyi qeyd edilərək, dövlət sərhədinin bu hissəsində strateji yüksəkliklərin ələ keçiriləcəyi təqdirdə, Ermənistanın Azərbaycan üçün əhəmiyyətli enerji və nəqliyyat kommunikasiyalarını təhdid edə biləcəyi vurğulanıb. Bundan əlavə, Ermənistan tərəfindən Mingəçevir Su Elektrik Stansiyasının bəndini raket zərbələri ilə məhv etmək təhlükəsinin dəfələrlə ifadə olunduğu, Naxçıvana və Azərbaycanın digər ərazilərinə iddiaların irəli sürüldüyü diqqətə çatdırılıb.

Məqalədə Ermənistanın təxribatlarına qarşı Bakının mərkəzində, eləcə də respublikamızın digər şəhər və rayonlarında Azərbaycan Prezidentinə və Milli Ordumuza dəstək yürüşlərinin keçirildiyi, 50 mindən çox Azərbaycan vətəndaşının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bölmələrinə müraciət edərək könüllü şəkildə orduda xidmət etmək və hərbi əməliyyatlarda iştirak etmək arzusunda olaraq qeydiyyatdan keçdiyi bildirilib. Son günlərdə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların Ermənistanın təxribatlarına qarşı keçirdikləri etiraz aksiyaları barədə məlumatlar öz əksini tapıb. Qeyd olunub ki, Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında azərbaycanlıların öz Vətənini dəstəkləmək üçün müvafiq dövlət orqanları ilə əvvəlcədən razılaşdırılmış dinc, vətənpərvərlik aksiyaları erməni diasporunun nümayəndələri tərəfindən fiziki zorakılıq, aqressiya və qeyri-insani nifrət hissi ilə üzləşib. Yaxşı hazırlıq və təlim keçmiş təhrikçilər dinc nümayişçilərə hücum çəkərək onlara xəsarət yetiriblər. Bir sıra hallarda aqressiv erməni qrupları həmin vaxt azlıqda qaldığına görə azğınlaşmış kütləyə müqavimət göstərə bilməyən azərbaycanlılara hücum ediblər.

Həmçinin, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən təcavüzünün və sərhəddə törətdiyi təxribatların bütün hüquq normalarına zidd olduğu, Ermənistanın BMT Nizamnaməsini və beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətrafındakı yeddi rayonunu işğal etdiyi, bu ərazilərdə yaşayan bir milyondan çox azərbaycanlının etnik təmizləməyə məruz qaldığı, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrdə Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu, Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının bir daha təsdiq edildiyi, erməni işğalçı qoşunlarının Azərbaycan Respublikasının işğal edilmiş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasının tələb edildiyi, qaçqın və məcburi köçkünlərin geri dönmələrini təmin etməklə, regionda qarşılıqlı əlaqələrin bərpasına çağırıldığı diqqətə çatdırılıb. Eyni zamanda müxtəlif beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən çoxsaylı sənədlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyinin əks olunduğu qeyd edilib. Ermənistanın sərhəddə törətdiyi təxribatların rəsmi Yerevanın Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə həllində maraqlı olmamasının növbəti sübutu kimi dəyərləndirilib və bu təcavüz aktının məsuliyyətinin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyü, Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinə qarşı layiqli cavab zərbəsi ilə sərhədlərimizin toxunulmazlığını və mülki əhalinin qorunmasını təmin etdiyi vurğulanıb.

# Biz birlikdə güclüyük!

# Pandemiya hələ davam edir

## COVID-19-un yox olduğunu sanıb arxayınlaşmaq əldə edilən müsbət dinamikanı heç edə bilər




*Əvvəli 1-ci səh.*

### Tövsiyə olunan tələblərə əməl etmək mütləqdir

ÜST-ün səlahiyyətli nümayəndələri, bu sahə üzrə mütəxəssislər vaxtaşırı pandemiya ilə bağlı vəziyyətin heç də yaxşı olmadığı ilə bağlı məlumatlar verir, dünyanın bu bəladan nə zaman yaxa qurtaracağı barədə dəqiq fikir söyləməkdə çətinlik çəkirlər. Ölkələrin yumşaldılma addımlarından sonra virusun daha aqressiv və sürətli yayılaraq ikinci, üçüncü dalğaları ilə daha təhlükəli vəziyyət yaratmaları barədə xəbərdarlıqlar edirlər.

Gedişat isə hazırkı böhranlı vəziyyətin bir neçə ay deyil, daha uzun müddət davam edəcəyini göstərir. Qısa müddətdə bəşəriyyətin bu təhlükədən qurtulmasının mümkünsüzlüyü acı gerçəklikdir və bu problemdən çıxış yolu tövsiyə olunan tələblərə əməl edərək infeksiyaya yoluxmamaqdır.

Virus hava-damcı yolu ilə insandan-insana keçdiyi üçün əsas şərt sosial izolyasiyanı təmin etməkdir ki, bu da xüsusilə karantin rejimi sayəsində mümkündür.

### Sərt karantin rejimi sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamaq baxımından vacibdir

Azərbaycanda son zamanlar gündəlik yoluxmada azalma müşahidə olunur. Bir müddət əvvəl gündəlik yoluxma sayı 500-dən çox idisə, hazırda bu say 400-dən aşağıdır. Sağalanların sayı isə hər ötən gün daha da çoxalaraq gündəlik sayı 600-ə yaxınlaşır.

Ölkəmizdə koronavirusun erkən aşkarlanması istiqamətində aparılan testlərin sayı da kifayət qədər, 690 mindən çoxdur.

Azərbaycanda sanitar-epidemioloji vəziyyət təhlil edilərək uyğun tədbirlər görülür. Nazirlər Kabinetinin qərarına əsasən, ölkəmizdə ümumi karantin rejimi uzadılıb, yoluxma riski yüksək olan bəzi şəhər və rayonlarımızda sərtləşdirilmiş rejim tətbiq olunub. Həftəsonları ictimai nəqliyyatın fəaliyyəti məhdudlaşdırılıb. Eyni zamanda metro da işləmir.

Operativ Qərargah mövcud sanitar-epidemioloji vəziyyətdən irəli gələrək hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, özünü və yaxınlarını virusa yoluxmadan maksimum qorumaq üçün preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırır.

Vətəndaşlar bilməlidirlər ki, sərt karantin rejimi sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamaq baxımından vacibdir. Əhalinin sağlamlığı və təhlükəsizliyinin təmin edilməsi hər zaman olduğu kimi, bu çətin günlərdə də Azərbaycan dövləti üçün ən mühüm və prioritet vəzifədir. Qəbul edilən bütün qərarlar da məhz buna hesablanıb.

### Qaydalara əməl etsək, ordumuza da dəstək olarıq

Onu da bildirək ki, ölkəmiz bütün qüvvələrini pandemiya ilə mübarizəyə səfərbər etdiyi bir məqamda, Ermənistan yenə də namərd əməllərindən çəkinməyərək sərhədlərimizi pozmağa cəhd etdi və bununla da vəziyyəti çətinləşdirməyə çalışdı. Təbii ki, dərhal polad qüvvəli ordumuz məkrli düşmənə layiqli cavab verərək onu yerinə otuzdurdu.

Vətənin hər qarış torpağı uğrunda döyüşərək canlarını fəda edib şəhid olan qəhrəman oğullarımızın əziz xatirəsi xalqımız tərəfindən hörmətlə anıldı. Şəhadətə yüksələn vətən oğullarımızla son vidaya, səngərlərdə sinəsini düşmənə sipər edən igid əsgərlərimizə dəstək üçün on minlər toplaşdı.

Qürurverici anlar yaşadıq, amma təəssüf ki, bu zaman pandemiya unuduldu, virusun varlığı yaddan çıxdı. COVID-19 pandemiyasının hələ məhdudlaşdırılmadığı, yoluxma hallarının yüksək olduğu bir vaxtda aksiyaların keçirilməsi, minlərlə insanın bir yerə toplaşması virusun daha geniş yayılmasına və insanların həyatını təhlükə qarşısına qoymasına əlverişli şərait yaratdı. Eyni zamanda vətəndaşların həlak olmuş hərbçilərimizin yaşadığı ünvanlara kütləvi şəkildə toplaşması və onların yaxınlarını ziyarət etməsi, dəfn mərasimlərində çoxlu insanların iştirakı virusun yayım sürətini daha da artırır.

Amma pandemiya şəraitində daha diqqətli olsaq, xalqımıza, o cümlədən ordumuza daha böyük dəstək vermiş olardıq.

### Virusun varlığını heçə saymaq təhlükəli hallarla üzləşmək deməkdir

Həmçinin son zamanlar yoluxma sayında müşahidə olunan müsbət dinamika, sağalanların sayının yüksək olması əhali arasında virusun yox olması kimi yanlış fikirlərə də yol açır. Virusun varlığını heçə saymaq ən təhlükəli hallara səbəb ola bilər. Hazırda əldə etdiyimiz müsbət dinamika, yumşaldılmalara doğru atılan addımlar bir anda əks istiqamətə yönələr. Sərvaxt olmalı, təhlükəli düşmənlərimizə qarşı sayıq davranmalıyıq.

İndi koronavirusla mübarizənin ən incə məqamındayıq. Ya birlikdə əl-ələ verib bu bəlanı birdəfəlik ölkəmizdən rədd edəcəyik, ya da onun gətirdiyi fəlakətlərə qatlanmalı olacağıq. Amma ikinci variantın reallaşmasını ağlımıza belə gətirməməli, daha məsuliyyətli addımlar atmaqla düşmənə qalib gəlməliyik. Həyatımızı yeni növ koronavirusun şərtlərinə uyğun tənzimləməli, sosial məsafə saxlamalı, maska taxmalı, gigiyena şərtlərinə əməl etməliyik. Onda istəyimizə nail olarıq.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***



# Həyata keçirilən sistemli tədbirlər bəhrəsini verir

## Ölkədə koronavirusla bağlı pozitiv statistika tendensiya halını almaqdadır

Ümumdünya Səhiyyə Təşkilatının mart ayında pandemiya elan etdiyi COVID-19 virusu Yer kürəsində tüğyan edərək kütləvi qırğınlar və yoluxmalar törətməkdə davam edir. İnsanlığın təhdidinə çevrilən bu infeksiyaya yoluxanların sayı saatbaat artır. Artıq dünyada 16 milyondan çox yoluxma və 652 mindən çox ölüm faktı qeydə alınıb, 11 milyona qədər insan isə COVID-19 xəstəliyindən sağalıb.

Pandemiyadan xilas olaraq əvvəlki həyat tərzinə geri dönmək üçün hər kəs peyvəndin hazırlanıb kütləvi istehsala buraxılacağı tarixi gözləyir. Müxtəlif ölkələrdə vaksinlə bağlı işlər aparılsa da, dəqiq tarix hələ də məlum deyil, bununla bağlı müxtəlif fikirlər səslənir. Ötən gün isə Avropada koronavirus əleyhinə vaksin istehsalına sentyabr ayında başlanacağının anonsu verilib.

Britaniyalı və italiyalı elm adamları, əsasən "AstraZeneca" əczaçılıq kampaniyası və Oksford Universitetinin alimləri, həmçinin "Irbm" şirkətinin molekulyar biotexnologiya sahəsinin mütəxəssisləri ChAdOx1 adlı preparat üzərində çalışır. İtaliyanın "Irbm" biotexnologiya kampaniyasının rəhbəri Pyero Di Lorenso deyib ki, vaksin artıq mindən çox pasiyentin üzərində sınaqdan keçirilib: "Hazırda çalışmaların 3-cü mərhələsindəyik və on minlərlə insanın üzərində sınaqlar keçiririk. İşlər yaxşı getsə, sentyabrın sonlarına qədər vaksin böyük həcmlərdə istehsal oluna bilər".

Onun sözlərinə görə, preparat, ilk növbədə, daha çox risk daşıyan insanlara veriləcək. Proqnozlara əsasən, ilk vaksin dozaları 2-3 avroya satışa çıxarılacaq. Avropada preparatın paylanması İtaliya, Niderland, Fransa və Almaniyadan başlayacaq. Buna baxmayaraq, peyvəndləmə sürətlə yayılacaq və il ərzində dünya təhlükəli infeksiyadan xilas olacaq.

İtaliyalı mütəxəssislər, eyni zamanda, COVID-19 əleyhinə bir neçə vaksin üzərində çalışırlar. Aprel ayında vaksinin hazırlanması tempinin sürətləndirilməsi məqsədilə "ReiThera" (İtaliya), "Leukocare" (Almaniya) və "Univercells" (Belçika) biotexnologiya kampaniyaları arasında strateji əməkdaşlığın başladığı elan olunub.

### İndiyədək ölkədə aparılan testlərin sayı 700 minə çatır

Hələliksə tibb aləminin qeyd-şərtsiz qəbul etdiyi əsas şərt odur ki, virusun yayılmasının qarşısını almaq üçün, ilk növbədə, ona yoluxan şəxsləri tez aşkarlamaq lazımdır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) da rəyinə əsasən, COVID-19 pandemiyası ilə mübarizədə vacib şərtlərdən biri müayinələrin aparılması və xəstəlik hallarının vaxtında müəyyənləşdirilməsidir. Yoluxma sürəti yüksək olan bu virusla mübarizənin effektiv nəticəsi məhz qabaqlayıcı, profilaktik tədbirlərin vaxtında və geniş həcmdə aparılmasından asılıdır. Bu baxımdan virusa yoluxmuş şəxslərin düzgün müayinə edilib zamanında aşkarlanması mühüm əhəmiyyət kəsb edir. Ona görə də testlərin keçirilməsinə xüsusi diqqət yetirilməsi olduqca vacibdir. Yalnız bundan sonra yoluxan insanları təcrid etmək, ünsiyyətdə olduqları şəxsləri müəyyənləşdirmək və nəticədə, yeni yoluxmaların qarşısını almaq mümkündür.

COVID-19-a yoluxma faktlarının müəyyən olunduğu ilk dövrlərdə Azərbaycan yalnız Ümumdünya Səhiyyə Təşkilatından məhdud şəkildə testlər alırdı və həmin dövrdə mövcud imkanlar çərçivəsində müayinələr aparılırdı. Sonrakı dövrdə isə ölkəmiz artıq özü kifayət qədər testlər almağa başladı. Virusun diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri quruldu, onlar Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edildi. İlkin vaxtlar ölkədə gündə cəmi 200-300 test keçirilirdisə, indi müayinələrin sayı dəfələrlə artıb. Ölkəmizdə koronavirusa yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar hər gün 6-7 mindən çox test aparılır. Ötən müddət ərzində aparılan testlərin sayı artıq 700 minə çatır. Adambaşına düşən testlərin sayına görə Azərbaycan dünyada ön sıralardadır.

Təbii ki, testin çox aparılması nəticəsində yoluxma hallarının da müəyyənləşdirilməsi artır. Müayinələrin vaxtında aparılması isə COVID-19 infeksiyasının yayılmasının qarşısının alınmasında mühüm rol oynayır. Lakin bu, yetərli deyil. Virusa kütləvi yoluxma hallarını azaltmaq üçün 3 qayda da mühümdür - karantin rejimi, sosial məsafə və maska taxmaq. Məhz bu qaydaların tətbiqi nəticəsində Azərbaycanda koronavirusla bağlı hazırkı mənzərə digər dünya ölkələrindən dəfələrlə yaxşıdı.

### Karantin rejimi tətbiq edilməsəydi, iki ayın içərisində ölkəmizdə bütün xalq koronavirusa yoluxardı

"Mikrobiologiyada R0 (R-sıfır) deyilən bir məfhum var, yəni patogen yayılma sürəti. Bildiyimiz qripin yayılma sürəti 2-3 nəfəri əhatə edir. Yəni qrip xəstəsi olan bir şəxs 2-3 nəfəri yoluxdura bilir. COVID-19-da isə bu göstərici 5-6 nəfərdir. Bu o deməkdir ki, bütün insanları bir yerə yığsaq, ora bir koronavirus xəstəsi qoyub yayılma sürətini 5 qəbul etsək və hər xəstənin yoluxdura bilmə gününü 7 gün götürsək, onda xəstə sayı hər həftə 1-5-25-125-625-3000-15000 və s. kimi artacaq. Yəni 4 həftə sonra 1-dən 600-ə, 8 həftə sonra isə viruslu xəstənin sayı 375 minə çıxacaq. Hazırda karantin rejimini tətbiq etmək, maskanın istifadəsinin zəruriliyi məhz bu cür çoxalmanın qarşısının alınması üçündür". Bunu ABŞ-ın "University of Maryland Medical Center" adlı xəstəxanasında koronaviruslu xəstələrlə çalışan soydaşımız, daxili xəstəliklər üzrə rezident həkim Həsən İmanlı deyib.

Onun sözlərinə görə, karantin, sosial məsafənin qorunması və maska taxmaq zərurəti virusun yayılma sürətini azaldır. Yoluxmanın pik həddə çatmasında bu qaydalara əməl olunmaması mühüm rol oynayır: "Məsələn, Çində ciddi karantin rejiminin tez bir zamanda tətbiq edilməsi və əhalinin hər bir fərdinin maska taxması nəticəsində 2 həftə ərzində yoluxma sayı azaldı. İtaliyada isə virusa qarşı tədbirlər gec alındığı üçün pik həddə yüksək sayla çatdılar. Virusu tam nəzarətə almadan karantin rejimini yumşaltmaqla isə ABŞ-dakı kimi pandemiyanın ikinci dalğası başlayır. Koronavirusun qarşısının tam alınması üçün ideal bir yol var, o da 6 milyard insanın 2-3 həftə evdən çölə çıxmamasıdır. Bu yolla virusa yoluxanların bədənlərində xəstəlik sonlanacaq və dünya bu bəladan xilas olacaq. Amma təbii olaraq, bunu həm ölkələr, həm də fərdlər baxımından tətbiq etmək çox çətindir. Çünki çalışması lazım olan müəssisələr var".

Azərbaycandakı vəziyyətə gəlincə, həkim bildirib ki, karantin rejimi yumşaldılan kimi virus şiddətlə yayıldı. Məhz görülən tədbirlərin nəticəsidir ki, artıq gündəlik yoluxma göstəricisi 500-dən aşağı düşüb. Karantin rejimi tətbiq edilməsəydi, iki ayın içərisində bütün Azərbaycan xalqı koronavirusa yoluxardı.

### Pozitiv tendensiya artıq özünü təsdiqləyib

Həyata keçirilən tədbirlər nəticəsində ölkədə pandemiya vəziyyəti nəzarət altına alınıb, insanların COVID-19 virusuna kütləvi yoluxma hallarının azaldılmasına nail olunub. Azərbaycanda həyata keçirilən çevik və sistemli tədbirlər, sərtləşdirilmiş karantin rejimi öz bəhrəsini verir. Ölkədə koronavirusla bağlı pozitiv statistika tendensiya halını alır. Son zamanlar ardarda sağalmanın yoluxmanı üstələməsi, həm də bu istiqamətdə fərqin getdikcə böyüməsi onu deməyə əsas verir ki, pozitiv tendensiya artıq özünü təsdiqləyib və biz bu istiqamətdə irəliləməkdəyik.

Hazırda əsas məqsəd isə bu pozitiv tendensiyanı qoruyub saxlamaq olmalıdır. Bunun üçün də Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi qaydaların icrası, qoruyucu vasitələrdən istifadə, gigiyena qaydalarına riayət edilməsi, məhdudlaşdırıcı tələblərin yerinə yetirilməsi zəruridir.

Mütəxəssislər qeyd edirlər ki, virusun xarici təbəqəsi yağdan ibarətdir. Sabun və spirt də yağ təbəqəsini çox asanlıqla təmizləyir. Ona görə əlləri tez-tez sabunlamaq və 70 faizlik spirtdən istifadə etmək mütləq lazımdır. Bəziləri koronavirusun hava yolu ilə yayıla bildiyini desə də, hələ bu hal insanlar üzərində müşahidə edilməyib. Virus ağız damcısı yolu ilə insandan-insana keçir. Bu damcılar asqırdığımız, ya da öskürdüyümüz zaman 2 metr uzağadək ötürülür. Ona görə də 2 metr sosial məsafənin gözlənilməsi vacibdir. Qapalı və havalandırılmayan məkanlarda bu damcılar uzun müddət havada qala bildiyi üçün belə yerlərdə toplaşmaq olmaz. Bundan başqa, virus göz vasitəsi ilə də keçdiyi üçün gözləri qorumaq önəmlidir. Bu, yalnız Azərbaycanda deyil, bütün dünya ölkələrində koronavirusdan qorunmağın ən təsirli yoludur. Əgər vətəndaşlar bu qaydalara riayət edərlərsə, özlərini və ailələrini də koronavirusa yoluxmaq təhlükəsindən qorunmuş olarlar.

***Xəyalə MURADLI, "Azərbaycan"***

# Daha 631 nəfər sağalıb, 412 nəfər yoluxub

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 631 nəfər sağalıb, 412 yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 30 min 858 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 23 min 873 nəfər müalicə olunaraq sağalıb, 430 nəfər vəfat edib. Aktiv xəstə sayı 6555 nəfərdir.

Ötən müddət ərzində 698 min 815 test aparılıb. Dünənki test sayı isə 8429-dur.




# Qanunvericiliyin tələblərinə uyğun tədbir görülür

Naftalanda koronavirus pandemiyasına qarşı həyata keçirilən profilaktik dezinfeksiya işləri ilə yanaşı, davamlı olaraq maarifləndirmə işlərinin gücləndirilməsi, sosial məsuliyyət və qaydalara riayət olunmasının vəziyyəti ilə bağlı tədbirlər həyata keçirilir.



Şəhər ərazisində pandemiyaya qarşı mübarizə aparmaq üçün hər birində 4 nəfər olmaqla, aidiyyəti strukturların əməkdaşlarından ibarət 5 mobil qrup fəaliyyət göstərir. Mobil qrupların üzvləri tərəfindən müvafiq ərazi bölgüsü əsasında mütəmadi olaraq ticarət, ictimai-iaşə və xidmət obyektlərində, banklarda, həmçinin turizm obyektlərində əhalinin müəyyən olunmuş qaydalara və sanitar-epidemioloji tələblərə əməl etmələrinin vəziyyətini öyrənmək və lazımi tədbirlər görmək məqsədilə reydlər keçirilir.

Bu günlərdə keçirilən reyd zamanı bir sıra nöqsanlar aşkar edilmişdir. Şəhər İcra Hakimiyyəti və Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) Gəncə Regional bölməsinin nümayəndələri ilə birgə təşkil edilmiş reyddə ticarət, ictimai iaşə və şəhərdə fəaliyyət göstərən turizm obyektlərində yoxlamalar aparılmış, sahibkarlıq subyektlərinə qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələbləri izah edilmiş və maarifləndirici tövsiyələr verilmişdir.

Reyd keçirilən obyektlərdən "Şəfa Vannaları 2" MMC-də Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərin tələblərindən irəli gələn bir sıra qaydalara əməl olunmaması və onların kobud şəkildə pozulması faktları aşkarlanmışdır. Aşkarlanmış faktlarla bağlı sözügedən MMC barəsində qanunvericiliyin tələbləri çərçivəsində inzibati tədbirlər görülmüşdür.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatı 2020-ci ilin birinci yarımilliyi üzrə fəaliyyətini uğurla başa vurmuşdur

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatı ("Aqrarkredit" QSC) cari ilin birinci yarımilliyində Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin ölkədə müəyyənləşdirdiyi iqtisadi siyasətə uyğun olaraq kənd təsərrüfatının inkişafına yardım göstərmək məqsədilə kənd yerlərində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinə respublikanın bütün ərazisini əhatə edən 12 regional filialı vasitəsilə kredit xidməti göstərərək kənd təsərrüfatı və emal sahələrinin maliyyələşdirilməsində aktiv rol oynamışdır.

"Aqrarkredit" QSC tərəfindən ölkənin 64 şəhər və rayonunun 1500 yaşayış məntəqəsində (kənd və qəsəbə) hüquqi və fiziki şəxslərə, borclular qruplarına, ailə kəndli təsərrüfatlarına kredit xidməti göstərilmişdir.

"Aqrarkredit" QSC tərəfindən 2020-ci ilin birinci yarımilliyində öz vəsaitləri, eləcə də "Sahibkarlığın İnkişafı Fondu", "Aqrar Kredit və İnkişaf Agentliyi" vəsaitləri hesabına 482 sahibkarlıq subyektinə 12.1 milyon manat məbləğində kredit verilmişdir. "Aqrarkredit" QSC-nin 30 iyun 2020-ci il tarixinə kredit portfeli 5765 sahibkarlıq subyekti üzrə 87.2 milyon manat təşkil etmişdir.

Ümumilikdə 2004-cü ildən indiyədək "Aqrarkredit" QSC tərəfindən 33 mindən çox hüquqi və fiziki şəxsə, borclular qruplarına, ailə kəndli təsərrüfatlarına 350,0 mln. manatdan artıq kredit verilmişdir ki, bu da təxminən 25 min yeni iş yerinin açılması, eyni zamanda kənd təsərrüfatında çalışan insanların sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması deməkdir.

"Aqrarkredit" QSC 2020-ci ilin birinci yarımilliyi üzrə fəaliyyətini mənfəətlə başa vurmuşdur. 30 iyun 2020-ci il tarixinə Kredit Təşkilatının aktivləri 12423.9 milyon manat, öhdəlikləri 12393.2 milyon manat, məcmu kapitalı 30.7 milyon manat, Nizamnamə kapitalı 22.7 milyon manat təşkil etmişdir.

"Aqrarkredit" QSC-nin məqsədlərindən biri də ixracyönümlü kənd təsərrüfatı məhsul istehsalçılarının maliyyə və kredit vəsaitlərinə çıxış imkanlarının genişləndirilməsinə dəstək olmaq və ölkəmizin ixrac potensialının genişləndirilməsinə, ölkəyə xarici valyuta gətirməklə valyuta ehtiyatının artırılmasına töhfə verməkdir.

Ölkənin kənd təsərrüfatına xidmət edən ən böyük bank olmayan kredit təşkilatı olan "Aqrarkredit" QSC öz strateji məqsədlərinə uyğun olaraq beynəlxalq maliyyə qurumları, xarici ölkələrin maliyyə təşkilatları və onların Azərbaycan Respublikasındakı nümayəndələri ilə əməkdaşlığa da xüsusi əhəmiyyət verir.

Azərbaycan Respubkilasının Prezidenti cənab İlham Əliyevlə Asiya İnkişaf Bankının prezidenti cənab Masatsuqu Asakava və həmin bankın digər rəhbər nümayəndələri arasında 1 iyun 2020-ci il tarixdə keçirilmiş videokonfransda müzakirə edilmiş kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi məsələlərinin məntiqi davamı kimi, eyni zamanda "Aqrarkredit" QSC-nin beynəlxalq təcrübəsinin davam etdirilməsi məqsədilə 2020-ci il iyun ayının 24-də "Aqrarkredit" QSC-nin rəhbərliyi ilə Asiya İnkişaf Bankının Azərbaycan nümayəndəliyinin rəhbərliyi arasında videokonfrans keçirilmişdir. Konfransda regionlarda mikro, kiçik, orta biznesin inkişafına daha yüksək səviyyədə kredit xidməti göstərmək üçün "Aqrarkredit" QSC ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlığın qurulması, gələcək perspektivdə bir sıra kənd təsərrüfatı layihələrinin birgə icrasına başlamaq əsas prioritet kimi vurğulanmışdır.

"Aqrarkredit" QSC-nin kollektivi qarşısına qoyulmuş hədəfləri ölkənin bütün kənd və qəsəbələrinin hüquqi və fiziki şəxslərinin, borclular qruplarının, ailə kəndli təsərrüfatlarının kredit əlçatanlığına nail olmaqla strateji missiyasını həyata keçirmək məqsədilə bundan sonra da borc istəyənlərə nümunəvi kredit xidməti göstərməyə çalışmaq olacaqdır.

*"Azərbaycan"*

# Tovuzda həyat öz axarı ilə davam edir

## Yetişdirilmiş kartof məhsulu itkisiz toplanır

2020-ci il iyul ayının 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozması nəticəsində başlanan hərbi əməliyyatlar zamanı düşmən təxribatının qarşısı alınaraq ona layiq olduğu cavab verilmişdir.





Vətən uğrunda döyüşlər zamanı hərbi qulluqçularımızla yanaşı mülki şəxs də şəhid olmuş, eyni zamanda rayonun infrastruktur obyektlərinə, dövlət mülkiyyətinə və vətəndaşların şəxsi əmlakına ciddi ziyan dəymişdir. Həmin gərgin günlərdə rayonda həyat öz axarı ilə davam etmişdir. İqtisadiyyatının əsasını aqrar sahə təşkil edən Tovuzda kənd təsərrüfatı işlərinin görülməsində heç bir fasilə və ləngimə olmamış, adamlar gündəlik məşğuliyyətini davam etdirmiş, rayonun yerli hakimiyyət orqanları və əlaqədar strukturları həyatın normal məcrada davam etməsini təmin etmişlər.

Kartofçuluq sahəsində zəngin ənənələrə malik olan Tovuz rayonunda hər il bol və kefiyyətli məhsul yetişdirilir. Rayonda 2020-ci ilin məhsulu üçün 6749 hektar sahədə kartof əkilmişdir ki, bu da əvvəlki ildə olduğundan 113 hektar çoxdur. Beləliklə, ikinci çörək adlandırılan kartof istehsalında rayon fermerləri mütərəqqi texnologiyalardan istifadə etməklə kənd təsərrüfatının intensiv inkişafına öz töhfələrini verirlər. Hazırda rayonda kartof yığımının qızğın dövrüdür. Yığımın vəziyyətini öyrənmək üçün Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov kartofçuluqla məşğul olan bir sıra fermer təsərrüfatlarına və ayrı-ayrı istehsalçıların tarlalarına gedərək fermerlərin qarşılaşdıqları problemlərlə maraqlanmışdır.

Rayon icra hakimiyyəti başçısı Kənd Təsərrüfatı Nazirliyinin "Azəraqrar Dövlət İstehsalat və Emal Birliyi" MMC ilə "Tovuz Aqrosan" MMC-nin toxumçuluq layihəsi ilə də maraqlanmışdır. Məlumat verilmişdir ki, layihənin məqsədi Tovuzu və regionu rayonlaşdırılmış kefiyyətli, məhsuldar kartof toxumları ilə təmin etməkdir. Bunun üçün Hollandiyadan elit toxumlar alınıb gətirilərək çoxaldılır.

Tovuzda iri təsərrüfatlarla yanaşı digər kənd təsərrüfatı istehsalçıları da kartof yığımını uğurla həyata keçirirlər. Rayonun kartof sahələrində xüsusi karantin rejiminin tələbləri gözlənilməklə iş ahəngi mütəşəkkilliklə davam edir. 300 hektar sahənin məhsulu toplanmış və hər hektardan 275 sentner kartof götürülmüşdür ki, bu da əvvəlki ilin müvafiq dövrünün göstəricisindən 25 sentner çoxdur. Ayrı-ayrı fermerlərin hər hektardan əldə etdiyi nəticə isə 500 sentner və daha yüksəkdir. İlkin nəticələr göstərir ki, bu il rayon üzrə kartof sahələrindən məhsuldarlıq daha yüksək olacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bakı Ali Neft Məktəbində "Virtual Məzun Günü" keçirildi

Bakı Ali Neft Məktəbinin Mətbuat xidmətindən verilən məlumata görə, BANM bu il "Məzun Günü" tədbirini virtual formada keçirib. Ali məktəbin sosial şəbəkələrdəki ("Facebook", "Youtube" və "Instagram") səhifələrində yayımlanan tədbirin aparıcısı qismində məşhur aparıcı Leyla Quliyeva çıxış edib.




Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, BANM-in akademik partnyoru olan Böyük Britaniyanın Heriot-Vatt Universitetinin rektoru Riçard Viliyam məzunları təbrik ediblər.

Rektor Elmar Qasımov müraciətində 2020-ci il Məzun Gününün çox çətin bir dövrə təsadüf etdiyini, hazırda Ali Baş Komandanımızın rəhbərliyi ilə qəhrəman Azərbaycan əsgərlərinin Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizə apardığını, eləcə də bütün dünyada qlobal COVID-19 pandemiyasının qarşısının alınması üçün ciddi karantin həyata keçirildiyini qeyd edib.

Rektor bildirib ki, təhsil tarixində ilk dəfə olaraq dünya universitetlərində, o cümlədən Azərbaycan ali təhsil müəssisələrində "Məzun Günü" tədbiri keçirilmir.

"Elə bu səbəbdən də, Bakı Ali Neft Məktəbi olaraq məzunlarımızı virtual şəkildə təbrik etmək qərarına gəldik. Ötən 5 il ərzində müəllimlərimiz üzərlərinə düşən müqəddəs vəzifəni - öyrətmək işini ləyaqətlə yerinə yetirib, valideynlər öz övladları ilə birgə imtahan həyəcanı yaşayıb, onların uğurlarına sevinib, həmçinin uğursuzluqlarına kədərləniblər. Mən məzunlarımızın valideynlərinə belə gözəl, bilikli, bacarıqlı, əxlaqlı, vətənpərvər övladlar yetişdirdikləri üçün təşəkkür edirəm".

E.Qasımov Vətən qarşısında borclarını yerinə yetirmək üçün Azərbaycan Orduna xidmətə yollanan, xarici ölkə universitetlərində təhsillərinə davam edəcək, eləcə də yerli və transmilli şirkətlərdə işə başlayan məzunlara uğurlar arzu edib.

"BANM məzunları möhtərəm Prezident İlham Əliyevin "Biz neft kapitalını insan kapitalına çevirməliyik" - çağırışının bariz yetirmələridirlər. Əminəm ki, onlar Vətənimiz Azərbaycanın, ailələrinin, ali məktəbimizin şərəfli adını həmişə uca tutacaqlar"- deyə rektor vurğulayıb.

Valideynlər adından çıxış edən, bu il ali məktəbdə "İlin tələbəsi" seçilən Cavid Məmmədlinin anası Gülər Məmmədova tələbələrin peşəkar ixtisaslı kadr kimi yetişməsində zəhmət çəkən pedaqoji heyətə təşəkkür edib.

"Bu illər ərzində başda rektor Elmar Qasımov olmaqla BANM-in professor-müəllim heyəti övladlarımızın mükəmməl təhsil alması, problemlərinin həll edilməsi, hətta şəxsi çətinliklərinin də çözülməsi üçün heç bir imkanını əsirgəməyib. Onların cəfakeş fəaliyyəti nəticəsində BANM tələbələr üçün doğma bir ailəyə çevrilib. Arzu edirəm ki, ixtisaslı kadr olaraq gələcək fəaliyyətiniz Azərbaycanımızın daha qüdrətli olması üçün öz töhfələrini versin" - deyə G.Məmmədova bildirib.

Tədbirdə BANM-in ötənilki məzunlarının dünyanın müxtəlif universitetlərindən və transmilli şirkətlərdən builki məzunlara göndərdiyi təbrik videosu nümayiş olunub. ABŞ, Türkiyə, Yaponiya, Norveç, Almaniya, İtaiya, Macarıstan, Səudiyyə Ərəbistanı və Anqola kimi ölkələrdə təhsillərini davam etdirən və işləyən BANM məzunları xələflərinə təbrik ünvanlayıblar.

Daha sonra bu il bakalavr səviyyəsi üzrə "İlin tələbəsi" seçilən Cavid Məmmədli, magistratura səviyyəsi üzrə "İlin tələbəsi" Ramil Şükürov, Prezident təqaüdçüsü, Neft-qaz mühəndisliyi ixtisasının birincisi Nihad Abbasov, Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasının birincisi İsmət Ağayev, Yatağın qiymətləndirilməsi və idarəolunması ixtisaslaşmasının birincisi Niyaz Əhmədzadə, Neft-qaz texnologiyası ixtisaslaşmasının birincisi Nizam Zahidli, Biznesin idarəolunması ixtisasının birincisi Güldənə Hidayətli təhsil aldıqları müddətdə əldə etdikləri uğurlar, yiyələndikləri akademik və sosial bacarıqlar barədə təəssüratlarını və xatirələrini bölüşüblər.

Tədbirin bədii hissəsində musiqi nömrələri, rəqslər, təqdimatlar, əvvəlki məzun günlərindən maraqlı fraqmentlər nümayiş olunub.

Sonda 2019/2020 buraxılış ili üzrə ali məktəb üzrə birinci olan Cavid Məmmədli adını simvolik kötüyə həkk edib. Virtual tədbir ənənəvi papaqatma ritualı ilə yekunlaşıb.

Məlumat üçün bildirək ki, bu il Bakı Ali Neft Məktəbinin Neft-qaz mühəndisliyi (49 nəfər), Kimya mühəndisliyi (46 nəfər) və Proseslərin avtomatlaşdırılması mühəndisliyi (14 nəfər) ixtisasları üzrə ümumilikdə 109 bakalavr məzun olur.

Bu il BANM ikinci magistr buraxılışını həyata keçirir. Biznesin idarəolunması ixtisası da daxil olmaqla, bu il magistratura səviyyəsi üzrə 40 nəfər məzun olur.

2019/2020-ci tədris ilində ali məktəbi ümumilikdə 14 tələbə fərqlənmə diplomu ilə bitirib.

Xatırladaq ki, Bakı Ali Neft Məktəbi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 29 noyabr 2011-ci il tarixli Fərmanı ilə dövlət ali təhsil müəssisəsi statusunda SOCAR-ın strukturunda yaradılıb.

BANM-də Neft-qaz mühəndisliyi, Kimya mühəndisliyi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi və İnformasiya təhlükəsizliyi ixtisasları üzrə bakalavr, Neft-qaz mühəndisliyi, Kimya mühəndisliyi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi və Biznesin idarəolunması (MBA) ixtisasları üzrə magistr pilləsi üzrə qəbul həyata keçirilir.

2017-ci ildə BANM-də ilk, 2018-ci ildə II, 2019-cu ildə III, bu il isə IV məzun buraxılışı həyata keçirilir. Məzunların hamısı işlə təmin olunub və hazırda SOCAR, Azneft İB, SOCAR Türkiyənin Petkim Petrokimya Holdinqi və Star Neft Emalı Zavodu, Azərikimya, Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu, SOCAR Polymer, BP, Schlumberger, Halliburton, Maire Tecnimont, TechnipFMC və s. kimi iri transmilli şirkətlərdə çalışırlar. Məzunların bir qismi isə doğma Azərbaycanın və eləcə də dünyanın öndə gedən universitetlərində magistratura və doktorantura pilləsində təhsillərini davam etdirirlər.


## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**LOT 1 - Tbilisi prospekti 107 ünvanında yerləşən inzibati binanın dam örtüyünün yenidən qurulması işlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**200 ( iki yüz ) manat (ƏDV daxil)**

iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN ödəniş" portalı vasitəsilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin Əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin Əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **20 avqust 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **28 avqust 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **31 avqust 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada* **etender@gov.az** *dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***


# Yunan din xadimi Ayasofyanın məscidə dönüşünə dəstək verdi



Ayasofyanı qoruyan türklər olmasaydı o, çoxdan çökərdi. Bunu yunanıstanlı din xadimi Yevangelos Papanicolau deyib.

"Ayya-Sofiya kimi böyük bir binanı kim qoruya bilərdi? Türklər isə bunu etdilər", - deyə keşiş Afinanın yaxınlığındakı Analipseos kilsəsinin dindarlarına müraciət edərək bildirib.

Onun sözlərinə görə," türklərin hakimiyyəti dövründə " bütün dinlərin nümayəndələri üçün din azadlığı təmin edilib.

Keşiş qeyd edib ki, Ayasofya muzey kimi fəaliyyət göstərəndə, turistlərin çoxu oraya "yaraşmaz geyimdə" daxil olurdu. "Bundan sonra onlar Ayasofyaya uzun paltarlarda, yaylıqlarda və ayaqqabısız daxil olacaqlar. Bu, hörmətli münasibət nümunəsi deyilmi? Ola bilər, biz baş verənləri lənət kimi deyil, düzəliş kimi qəbul etməliyik",- deyə o, əlavə edib.

İyulun 10-da Türkiyə Dövlət Şurası ölkə hökumətinin Ayasofya Muzeyinin statusuna dair 24 noyabr 1934-cü il tarixli qərarını ləğv edib.

Türkiyə Dövlət Şurası Ayasofyanın Sultan Mehmet Xan adına Fondun balansında olduğunu və məscid kimi istifadə oluna biləcəyini qərara alıb.

İstanbulun fəthinin rəmzi sayılan məsciddə uzun onilliklər ərzində ilk namaz iyulun 24-də qılınıb.

## Beynəlxalq aləm

# Pakistanda atışmada 5 polis əməkdaşı öldürüldü



Pakistanın Gilqit-Baltistan əyalətinin Diamir rayonunda hüquq-mühafizə orqanlarının əməkdaşları ilə qeyri-leqal silah alverçiləri arasında atışma olub. Nəticədə ən azı 5 polis əməkdaşı ölüb, daha 5 polis əməkdaşı və 2 mülki şəxs yaralanıb. Bu barədə yerli "Geo.tv" telekanalının məlumatına istinadən TASS agentliyi xəbər verir.

Bildirilir ki, cinayətkarlar hüquq-mühafizə orqanlarının əməkdaşlarına atəş açıblar və hadisə yerindən qaçmağa nail olublar.

# Mexikoda idmançıları ildırım vurdu



Meksikanın paytaxtı Mexikonun cənub-şərqində iki qadın futbolçu ildırım vurmasından həlak olub, daha üç idmançı yaralanıb. Bu barədə yerli "Universal" qəzeti xəbər verir.

Məlumata görə, Tlauak bələdiyyəsində keçirilən Qadın Futbol Liqasının matçı leysan yağış səbəbindən dayandırılıb. Beş qız futbol meydançasında qalan topun arxasınca geri dönmüş, bu anda onları şimşək vurmuşdur. Zərərçəkənlərin hamısı dərhal xəstəxanaya aparılsa da, iki idmançının həyatını xilas etmək mümkün olmayıb. Qeyd olunur ki, həlak olanlardan biri yetkinlik yaşına çatmayıbmış.

Qəzetin yazdığına görə, daha üç idmançı ikinci dərəcəli yanıq xəsarətləri alıb. Hazırda onların həyatı üçün təhlükə yoxdur.

# NASA-dan asteroidin Yerə yaxınlaşması barədə xəbərdarlıq

ABŞ-ın Milli Aeronavtika və Kosmos İdarəsi (NASA) diametri 84-190 metr arasında olan bir asteroidin Yerə yaxınlaşması barədə xəbərdarlıq edib. Bu barədə TASS agentliyi məlumat verir. Qeyd edilir ki, 2009 PQ1 adı verilən asteroid avqustun 5-də Yer kürəsinə maksimal məsafədə yaxınlaşacaq və 13,4 km/s sürətlə planetimizdən 3,2 milyon km məsafədə uçacaq.

Asteroid 14 avqust 2009-cu ildə aşkar edilib. Astronomlar onu orbitləri Yer orbitindən keçən Apollon - asteroidlərə aid edirlər.

## MARAQ MƏKTUBLARININ QƏBUL EDİLMƏSİNƏ DAİR ELAN (MƏSLƏHƏT XİDMƏTLƏRİ)

**Azərbaycan Respublikası**
**Məşğulluğa Dəstək Layihəsi**
Layihənin İD №: P171250
Tapşırığın adı: 4 Texniki Tapşırıq sənədinin hazırlanması üçün Məsləhət Xidməti
İstinad Nömrəsi. (Satınalma Planına uyğun olaraq): AZ-MLSPP-183489-CS-INDV

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Məşğulluğa Dəstək Layihəsini həyata keçirmək məqsədilə Dünya Bankından cəlb edilən maliyyə vəsaitlərinin bir hissəsini məsləhət xidmətlərinin satınalınmasına yönəltmək niyyətindədir.

Məsləhət xidmətləri ("Xidmətlər") Layihə İcra Qrupu (LİQ) ilə birlikdə, müxtəlif təlim modullarının tərtib edilməsi, əmək bazarının qiymətləndirilməsi və PTM strategiyasının hazırlanması, kommunikasiya və məlumatlandırma proqramı, müvafiq sorğular, mobil tətbiqlər, proqram təminatı, biznes inteqrasiyası mütəxəssisləri və mentorların cəlb olunması üçün texniki tapşırıqların hazırlanmasından ibarətdir.

Ətraflı Texniki Tapşırıq ilə aşağıdakı linkdən tanış olmaq olar: **https://drive.google.com/file/d/1KL3sMrrESZVzsVRy1U-I7d4CIM2XP17s/view?usp=sharing**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi, uyğun mütəxəssisləri ("Məsləhətçi") xidmət göstərməkdə maraqlı olduqlarını bildirmək üçün dəvət edir. Maraqlanan mütəxəssislər öz CV formalarını təqdim etməlidirlər.

Maraqlı olan Məsləhətçilərin diqqəti Dünya Bankının, 2017-ci il noyabr və 2018-ci il avqust aylarında yenidən baxılmış ("Satınalma Qaydaları"), İyul 2016-cı il tarixli "İLM üzrə Borcalanlar üçün Satınalma Qaydaları" sənədinin Bölmə III, 3.14, 3.16 və 3.17-ci bəndlərinə yönəldilir ki, bu da Dünya Bankının maraqların toqquşmasına dair siyasətini təyin edir.

Məsləhətçilərin seçim prossesi, Satınalma Qaydaları sənədinin Bölmə VII, 7.34-7.37-ci bəndlərinə uyğun olaraq Fərdi Məsləhətçilərin Açıq Rəqabətli Seçimi metoduna uyğun olaraq seçiləcəkdir.

Əlavə məlumatı iş saatı ərzində (Bazar ertəsi-cümə günləri saat 09:00-dan 18:00-a kimi) aşağıda göstərilən ünvandan əldə etmək olar.

Maraq məktubları 20 Avqust 2020-ci il tarixinədək, aşağıdakı ünvanlara (şəxsən, məktub şəklində, faks və ya elektron poçt vasitəsilə) göndərilməlidir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi**
**Kimə: Hüseynqulu İsmayılov, Satınalma üzrə Mütəxəssis**
**AZ1009, Salatın Əsgərova 85,**
**Bakı, Azərbaycan**
**Tel: (994 12) 5419849**
**E-mail: asep.huseyn@gmail.com**

## REQUEST FOR EXPRESSIONS OF INTEREST CONSULTING SERVICES

**The Republic of Azerbaijan**
**Employment Support Project**
Project ID No.: P171250
Assignment Title: Consultancy Services for Preparation of 4 TORs
Reference No. (as per Procurement Plan): AZ-MLSPP-183489-CS-INDV

The Ministry of Labor and Social Protection of Population has received financing from the World Bank toward the cost of the Employment Support Project, and intends to apply part of the proceeds for consulting services.

The consulting services ("the Services") include together with the Project İmplementation Unit (PİU), prepare the terms of references for the development of various training modules, labor market assessment and preparation of VTC strategy, communication and outreach program, relevant surveys, mobile applications, development of software, hiring of business integration experts and mentors.

The detailed Terms of Reference (TOR) for the assignment **https://drive.google.com/file/d/17I3r8S0Pwv-rWkw-Oq2Gv3_khew-SR_A/view?usp=sharing**

The Ministry of Labor and Social Protection of Population / Employment Support Project now invites eligible Experts ("Consultants") to indicate their interest in providing the Services. Interested Experts must provide Curriculum Vitae's.

The attention of interested Consultants is drawn to Section III, paragraphs, 3.14, 3.16, and 3.17 of the World Bank's "Procurement Regulations for IPF Borrowers" July 2016, revised November 2017 and August 2018 ("Procurement Regulations"), setting forth the World Bank's policy on conflict of interest.

A Consultant will be selected in accordance with the Section VII, paragraphs, 7.34-7.37 Open Competitive Selection of Individual Consultants method set out in the Procurement Regulations.

Further information can be obtained at the address below during office hours (Monday to Friday 09:00 to 18:00 hours).

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by August 20, 2020.

**Ministry of Labor and Social Protection of Population / Employment Support Project**
**Attn: Mr.Huseyngulu Ismayilov,**
**Procurement Specialist**
**AZ1009, Salatin Askarova 85,**
**Baku, Azerbaijan**
**Tel: (994 12) 5419849**
**E-mail: asep.huseyn@gmail.com**

## "Azərişıq" ASC Yevlax və Goranboy rayonları ərazisində Aqroparkın elektrik təchizatı üçün 35/0.4 kV-luq yarımstansiyanın tikintisi, avadanlıqların quraşdırılması, 35 kV-luq hava xəttinin çəkilməsi və 35/0,4 kV-luq KTM-lərin quraşdırılması işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1** Yevlax və Goranboy rayonları ərazisində Aqroparkın elektrik təchizatı üçün 35/0.4 kV-luq yarımstansiyanın tikintisi, avadanlıqların quraşdırılması, 35 kV-luq hava xəttinin çəkilməsi və 35/0,4 kV-luq KTM-lərin quraşdırılması işlərinin satın alınması

**İştirak haqqı - 400 manat**
**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namiq Heybətov, telefon: 440-39-93 daxili (23-71)

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (**https://etender.gov.az/**).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04 sentyabr 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **14 sentyabr 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **15 sentyabr 2020-ci il saat 16:00-da** Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## OXUCULARIN NƏZƏRİNƏ "AZƏRBAYCAN"

***qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | (012) 440-46-94, (070) 244-17-34 |
| *"Azərpoçt" ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 564-63-45, (050) 214-04-05 |
| *"Kaspi" MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*6 aylıq* — 62,40 (altmış iki manat qırx qəpik) manat
*3 aylıq* — 31,20 (otuz bir manat iyirmi qəpik) manat
*1 aylıq* — 10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## "Azercell"in yeni 4G WiFi modemindən eyni zamanda 32 istifadəçi yararlana bilər

Abunəçilərinin rahatlığını hər zaman prioritet hesab edən "Azercell Telekom" MMC, #Rəqəmsal Günlər çərçivəsində yeni kampaniyaya start verir. Bu dəfə lider mobil operator müştərilərinə 4G WiFi modemini təqdim edir. Yeni modem eyni zamanda 32 istifadəçiyə internetdən yararlanmaq imkanı verərək, mobil telefon, planşet, televizor, kompüter və digər simsiz internetə qoşula bilən bütün cihazları yüksək sürətli mobil data xidmətləri və sabit siqnal ilə təmin edir. Cihazın digər üstünlüyü isə əhatə radiusunun 150-200 metr olmasıdır ki, bu da öz növbəsində modem vasitəsilə uzaq məsafədən belə internetə qoşulmaq imkanı yaradır. Kampaniya çərçivəsində abunəçilər 4G WiFi cihazı ilə yanaşı, 1 ədəd DATA tarifində olan Fakturasız xətt nömrəyə və 1 aylıq 50 GB həcmində internetə də sahib olur . Yeni 4G WiFi cihazlarını cəmi 129 AZN ödəyərək "Azercell"in bütün Diler Ofislərindən əldə etmək mümkündür. Qeyd edək ki, kampaniya yalnız fiziki şəxs olan abunəçilər üçün nəzərdə tutulub.




## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetinin 15.05.2020-ci il tarixli sayında dərc edilmiş "Fiber optik kabellərin satın alınması" prosedurunun qalibi "C.E.S.-2008" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "C.E.S.-2008" MMC arasında 28.07.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Qüdrət Həsənquliyevə əzizi
**BƏHRUZ KƏRİMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin kollektivi "Azenko" MMC-nin direktoru
**ZƏKƏRİYYƏ POLADOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev və səhmdar cəmiyyətin kollektivi Milli Məclisin İşlər İdarəsinin müdiri Firudin Hacıyevə bacısı
**MƏTANƏT XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı veririlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin şədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İsaxan Vəliyev Azərbaycan Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyası Hüquq fakültəsinin kollektivi kafedranın əməkdaşı Xatirə Əlizadəyə atası
**RASİM MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Milli Məclisin deputatı Elnur Allahverdiyevə əzizi
**ELMİRA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Həmid Bağırov ailəsi ilə birlikdə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin İşlər idarəsinin müdiri Firudin Hacıyevə bacısı
**MƏTANƏT XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Nizami rayonu 7 nömrəli Doğum evinin kollektivi mama-ginekoloq
**VALİYƏ EYNULLA QIZI PEYKƏRİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin "Bakı 6 N Yol İstismarı" MMC-nin direktoru Allahverdi Dəmirova atası
**HÜSEYN MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, professor Nəsib Quliyev və institutun əməkdaşları Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasının dosenti Gülarə Həsənquliyevaya oğlu
**BƏHRUZ KƏRİMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bərdə Suvarma Sistemləri İdarəsinin kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bərdə Subartezian Quyularının İstismarı İdarəsinin kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qarabağ-Meşə Meliorasiya İdarəsinin kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi
**İLHAM RƏCƏBOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6996
Sifariş 1798
Qiyməti 40 qəpik